QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 227 (5458) 12 **dekabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# ƏBƏDİYAŞAR LİDER



Azərbaycan ilə Rusiya arasında əlaqələr uğurla inkişaf edir



2

Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər



3

Oqtay Əsədov: Rusiya ilə parlamentlərarası əlaqələrimiz yüksək səviyyədədir



3

Böyük Britaniyanın Lordlar Palatasında İngiltərə-Azərbaycan Cəmiyyətinin ənənəvi Milad xeyriyyə yığıncağı və Cəmiyyətin 20 illik yubileyi qeyd edilib



7

Xarici diplomatlar, beynəlxalq təşkilatların rəhbərləri və jurnalistlər Tərtərə səfər ediblər



3

Azərbaycanla Rusiya arasında daim qarşılıqlı anlaşma mühiti mövcud olub



14

11

Yasamal rayonunda Ümummilli Lider Heydər Əliyevin xatirəsi anıldı



12

Ulu Öndər Heydər Əliyevin ideyaları Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin əsasıdır



16

Formula-1 yarışlarının Azərbaycan Qran-Prisi mərhələsinə gələn tamaşaçıların sayı 58 faiz artıb



# Azərbaycan ilə Rusiya arasında əlaqələr uğurla inkişaf edir

*Prezident İlham Əliyev Rusiya Dövlət Dumasının nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, parlamentlərarası əməkdaşlığın əlaqələrimizin möhkəmlənməsində rolu qeyd edildi.

Prezident İlham Əliyev Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi ilə Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin birgə komissiyasının Bakıda keçirilən iclasının bu əməkdaşlığa verdiyi töhfəni vurğuladı. Dövlətimizin başçısı parlamentlər səviyyəsində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini bildirdi.

Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikov Rusiya Federasiyası Dövlət Dumasının sədri Vyaçeslav Volodinin salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq Azərbaycana gəldiyi ilk gündən Bakıda gedən inkişaf proseslərinin onlarda dərin təəssürat doğurduğunu dedi. Dekabrın 12-də ulu öndər Heydər Əliyevin anım gününün qeyd olunacağını vurğulayan Leonid Kalaşnikov bildirdi ki, bu böyük şəxsiyyətin xatirəsi Rusiyada bu günə kimi dərin hörmətlə yad edilir. Dövlətimizin başçısı İlham Əliyev Vyaçeslav Volodinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Dövlət Dumasının sədrinə çatdırmağı xahiş etdi.

# "Əl-Cəzirə" qəzeti: Heydər Əliyev Azərbaycanı siyasi və iqtisadi böhrandan xilas edib

***Səudiyyə Ərəbistanı Krallığının çoxtirajlı "Əl-Cəzirə" qəzetində "Müasir Azərbaycanın qurucusunun vəfatından 14 il keçir" adlı məqalə dərc olunub.Məqalədə ümummilli lider Heydər Əliyevin çoxşaxəli dövlətçilik fəaliyyəti, o cümlədən zəngin bioqrafiyası barədə ərəbdilli oxuculara ətraflı məlumat verilir. Qeyd olunur ki, ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyə gəlişindən sonra ölkədə əsaslı inkişaf mərhələsi başlanıb. Yüksək intellekti, yorulmaz fəaliyyəti, işgüzarlığı, faydalı qərarları ilə keçmiş SSRİ-də böyük rəğbət qazanan Heydər Əliyev sovetlər birliyinin ali hakimiyyət orqanlarında yüksək vəzifələrdə çalışıb.***




Diqqətə çatdırılır ki, ulu öndər Heydər Əliyev ölkədəki mövcud hakimiyyətin bütün ağırlığını öz çiyninə götürüb və qısa zaman kəsiyində xalqın həmrəyliyinə nail olub. Ölkəni siyasi və iqtisadi böhrandan xilas edib və gələcək inkişaf strategiyasını müəyyənləşdirib. Oxuculara məlumat verilir ki, 1994-cü ildə ümummilli lider Heydər Əliyev Səudiyyə Ərəbistanında səfərdə olub, Kəbəyə Ümrə ziyarəti edib. Səfər zamanı İki Müqəddəs Ocağın Xadimi, Kral Fəhd Ermənistanın Azərbaycana qarşı təcavüzünü qətiyyətlə pisləyib. Bundan əlavə, səfər çərçivəsində Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlığa dair Baş Saziş imzalanıb. 2003-cü ildə 80 yaşında vəfat etmiş Heydər Əliyevin qurub yaratdığı Azərbaycan keçmiş sovet respublikaları arasında ən güclü ölkələrdən birinə çevrilib. Heydər Əliyevin vəfatından 14 il keçməsinə baxmayaraq, onun əməlləri xalqın yaddaşında qalacaq və Azərbaycan xalqı Ümummilli Liderin xatirəsini həmişə uca və əziz tutacaq.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Bakı şəhəri Xəzər rayonunun Zirə və Türkan qəsəbələrində, Pirallahı rayonunun Pirallahı qəsəbəsində su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 821-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 840-VQD nömrəli Qanununun tətbiqi və "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 2 may tarixli 957-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 iyun tarixli 190 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 866-VQD nömrəli Qanununun tətbiqi və "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 mart tarixli 299 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 857-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 856-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 844-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 843-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 831-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 828-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər



Dekabrın 11-də Yeni Azərbaycan Partiyasının nümayəndələri müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ulu Öndəri Heydər Əliyevin vəfatının 14-cü ildönümü ilə əlaqədar Fəxri xiyabanda Ümummilli Liderin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb. Tarixin yetirdiyi nadir şəxsiyyətlərdən olan ümummilli lider Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin qovuşuğunda Azərbaycan öz milli mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoyub.

Ulu Öndər Heydər Əliyevin zəkası bütün maneələri aşaraq və qarşıya çıxan çətinliklərə baxmayaraq, Azərbaycanı tənəzzüldən, hərc-mərclikdən, vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsindən uğurla çıxarıb ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırıb. Əbədiyaşar liderimiz Heydər Əliyev olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayandığını nümayiş etdirməklə yanaşı, həm də Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün Nizamnaməsi və Proqramı əsasında fəaliyyət göstərən, öz sıralarında ölkəmizdə hüquqi dövlət, sabit və sosialyönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətəndaşları birləşdirən sağ mərkəzyönümlü siyasi partiya olan Yeni Azərbaycan Partiyasının (YAP) banisidir. Ümummilli Liderin yaratdığı Yeni Azərbaycan Partiyası bu gün sıralarında 700 mindən çox üzvü birləşdirərək ölkənin avanqard siyasi qüvvəsi kimi respublikamızda YAP-ın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən nəhəng quruculuq proseslərinin önündə gedir.

# Oqtay Əsədov: Rusiya ilə parlamentlərarası əlaqələrimiz yüksək səviyyədədir

Dekabrın 11-də Milli Məclisin sədri Oqtay Əsədov Rusiya Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, spiker Azərbaycanın Rusiya ilə əlaqələrin inkişafına böyük önəm verdiyini söyləyib. Bildirilib ki, dövlət başçılarının qarşılıqlı səfərləri zamanı aparılan danışıqlar və ölkələrimiz arasında imzalanmış sənədlər əməkdaşlığımızı keyfiyyətcə yeni səviyyəyə - strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Sevindirici haldır ki, hər iki ölkənin parlamentləri arasındakı əlaqələrimiz də yüksək səviyyədədir. Bu gün münasibətlərimizin tarixində ilk dəfə olaraq Azərbaycanın və Rusiyanın ali qanunverici orqanlarının müvafiq komitələrinin Bakıda ilk iclası keçirilir.



Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsi ilə Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin birgə iclasında müzakirə olunan məsələlər əlaqələrimizin gələcək inkişafı baxımından çox əhəmiyyətlidir. Heç də təsadüfi deyil ki, beynəlxalq təşkilatlarda da nümayəndə heyətlərimiz qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi apararaq vahid mövqe nümayiş etdirirlər.

Oqtay Əsədov qeyd edib ki, Azərbaycan ilə Rusiya arasında iqtisadi, humanitar, mədəni sahələrdə əlaqələr də gündən-günə inkişaf edir. Ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın daha da dərinləşməsi üçün bütün imkanlar mövcuddur.

Leonid Kalaşnikov ölkəmizə səfərindən və Milli Məclisdə müvafiq komitələrin birgə iclasının yekunlarından məmnun qaldığını söyləyib. Bildirilib ki, Rusiya Azərbaycanla əlaqələrin dərinləşməsində, o cümlədən parlamentlər səviyyəsində münasibətlərin davamlı inkişafında maraqlıdır. Bu, hər iki xalqın mənafelərinə uyğundur. "Biz gələcəkdə Milli Məclislə əlaqələrimizi daha da möhkəmləndirmək niyyətindəyik. Nümayəndə heyətlərimizin beynəlxalq təşkilatlarda mütəmadi görüşlərini və prinsipial məsələlər üzrə aparılan fikir mübadilələrini təqdirəlayiq hesab edirik", - deyə o qeyd edib. Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və digər rəsmi şəxslər iştirak ediblər.

# Xarici diplomatlar, beynəlxalq təşkilatların rəhbərləri və jurnalistlər Tərtərə səfər ediblər

***Azərbaycan Prezidenti İlham Əliyevin göstərişinə əsasən, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Xarici İşlər Nazirliyi xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndələrinin, beynəlxalq təşkilatların rəhbərlərinin, həmçinin kütləvi informasiya vasitələri təmsilçilərinin dekabrın 11-də Tərtər rayonuna səfərini təşkil edib.***



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, diplomatlar və KİV nümayəndələri əvvəlcə Tərtər rayonunda 1170 məcburi köçkün ailəsi üçün yeni salınmış yaşayış kompleksinə gəliblər. Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov məlumat verərək bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma yurdlarından didərgin salınmış qaçqın və məcburi köçkünlərin yeni mənzillərlə təmin olunması istiqamətində son illər mühüm tədbirlər görülüb. Bu yaşayış kompleksi son 16 ildə Azərbaycanda məcburi köçkünlər üçün salınan sayca 97-ci şəhərcikdir. İndiyədək 53 min ailə - 260 min nəfərə yaxın qaçqın və məcburi köçkün yeni mənzillərə köçürülüb. Bu yaşayış kompleksi 50 hektar torpaq sahəsində inşa edilib. Burada dördmərtəbəli 34 yaşayış binası, 1200 şagird yerlik məktəb, uşaq bağçası, musiqi məktəbi, inzibati bina, klub-icma mərkəzi, həkim məntəqəsi, ATS binası tikilib. Elektrik, su, qaz, istilik təchizatı və bütün digər zəruri infrastrukturla təmin olunmuş kompleksə Tərtər rayonu ərazisində müvəqqəti məskunlaşmış Kəlbəcər, Ağdam, Laçın və digər rayonlardan olan məcburi köçkünlər yerləşdiriləcək. Yaşayış kompleksinin tikintisi 1992-ci ildə işğaldan azad olunmuş ərazidə Prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilib.

İsveç və Hollandiya səfirliklərinin nümayəndələrinin yaşayış kompleksi və buraya köçürüləcək insanların məşğulluğu ilə bağlı suallarını cavablandıran Baş nazirin müavini qeyd edib ki, Azərbaycanın qaçqın və məcburi köçkünlərə xidmət sahəsində təcrübəsi dünyaya nümunə olan bir modeldir. Ermənistanın Azərbaycana hərbi təcavüzü başlayanda 7 milyon əhalinin bir milyonu qaçqın və məcburi köçkünə çevrilmişdir. İndi onların sayı 1,2 milyona çatıb. Ötən 25 ildə məcburi köçkünlərlə hökumət arasında heç bir narazılıq baş verməyib. Bu, idarəetmənin düzgün təşkili sayəsində mümkün olub. Qaçqın və məcburi köçkünlərlə bağlı siyasətin təməli Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub və Prezident İlham Əliyev onu daha da təkmilləşdirilib.

"Yaşayış kompleksindəki 1170 mənzilə altı min məcburi köçkün yerləşdiriləcək. 50 hektar ərazinin 27 hektarında şəhərcik tikilib, 23 hektarı isə bura köçəcək ailələrə paylanılmaq üçün saxlanılıb. Kompleksə yerləşəcək məcburi köçkünlər əsasən heyvandarlıqla məşğuldurlar və 23 hektar ərazi onların arasında bölünəcək və onlar burada mal-qara saxlaya biləcəklər. Məcburi köçkünlərin bir hissəsi məktəb, uşaq bağçası, musiqi məktəbi, inzibati bina, klub-icma mərkəzi, həkim məntəqəsi və ATS-də işlə təmin olunacaqlar. Bir qismi isə artıq Tərtər rayonunda işlə təmin edilib. Hesab edirik ki, burada işsizlik problemi olmayacaq", - deyə Əli Həsənov bildirib.

Diplomatlar və KİV nümayəndələri sonra ermənilərin Azərbaycana qarşı ərazi iddialarını ifşa edən "Marağa-150" abidəsi ilə tanış olublar.

Baş nazirin müavini Əli Həsənov məlumat verib ki, ermənilərin Azərbaycanın Qarabağ bölgəsinə köçürülməsini sübut edən tarixi mənbələrdən biri olan "Marağa-150" abidəsi ermənilərin İranın Marağa ərazisindən Qarabağa köçürülmələrinin 150 illiyi münasibətilə 1978-ci ildə onların özləri tərəfindən inşa edilib. XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları başlayanda "Marağa-150" abidəsi qəsdən dağıdılıb. Çünki o, ermənilərin əzəli Azərbaycan torpağı olan Qarabağa köçürülməsinin əyani sübutu idi. Bu abidə, tarixi-siyasi əhəmiyyəti nəzərə alınaraq, Prezidentin tapşırığı ilə yenidən bərpa olunub. Ermənilərin Qarabağa köçürülmələrini təsdiqləyən, həmçinin "Marağa-150" abidəsi ilə bağlı tarixi sənəd, məlumat və fotolar arxivlərdən toplanaraq, Azərbaycan, rus və ingilis dillərində stendlər qurulub.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev jurnalistlərə müsahibəsində deyib: "Səfərdə 60-dan çox ölkənin səfirləri və diplomatik nümayəndəliklərin rəhbərləri, o cümlədən Azərbaycanda akkreditə olmuş beynəlxalq təşkilatların nümayəndələri iştirak edirlər. Onlar səfər zamanı bir çox məlumatlar əldə ediblər. Bildirirlər ki, Azərbaycan hökumətinin siyasətinin əsasında insan amili durur. Qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində Azərbaycanın təcrübəsi beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir".

Diplomatların bir neçəsi səfərlə bağlı təəssüratlarını bölüşüblər. Niderland səfiri Onno Kervers: "Biz burada gördüklərimizdən çox məmnunuq. Əminik ki, məcburi köçkünlər burada rahat həyat yaşayacaqlar".

Fransa səfiri Orelia Buşez: "Burada gördüklərim, tikilən binalar məndə xoş təəssürat oyatdı. Bunlar məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün yüksək səviyyədə görülmüş işlərdir. Hər bir fəaliyyətin əsasında insan amili dayanmalıdır və biz onu burada gördük. Burada yaşayacaq insanlara xoşbəxtlik, firavanlıq arzulayıram. Hər bir icmanın inkişafı üçün davamlı sülhün və sabitliyin olması çox vacibdir. Fransa ATƏT-in həmsədrlərindən biri kimi, münaqişənin danışıqlar yolu ilə həlli və davamlı sülhün təmin olunması istiqamətində səylərini bundan sonra da davam etdirəcək".

# Heydər Əliyevsiz 14 il: **Ulu Öndərin zəngin dövlətçilik irsi əbədiyaşardır**

***Trend YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovun ümummilli lider Heydər Əliyevin ildönümü ilə bağlı üçün xüsusi məqaləsini dərc edib. Məqaləni təqdim edirik.***



Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində özünün müstəsna əhəmiyyəti, sambalı, xalqımızın nəinki bu günü, həm də gələcək taleyinin müəyyənləşdirilməsi baxımından Heydər Əliyev epoxası bənzərsizdir. Bu epoxanın hər bir mərhələsi müasir tariximizin bütöv bir salnaməsini təşkil edir ki, onun da hər bir səhifəsi, hər bir sətri ulu Öndərimiz Heydər Əliyevin qüdrətli əlləri ilə yazılıb. Bu mərhələləri təhlil etməzdən əvvəl belə bir vacib aspekti önə çəkmək lazımdır ki, Azərbaycanın və böyük türk dünyasının müdrik lideri Heydər Əliyevin fəaliyyəti öz əhəmiyyəti etibarilə ölkəmizin hüdudlarından çox-çox kənara çıxaraq, öz zəngin məna tutumu ilə bəşəri zirvəyə yüksəlib.

Ulu Öndərimiz zamanı qabaqlayan, onun fövqündə dayanan elə bir dahi şəxsiyyətdir ki, o yalnız öz dövrü üçün yaşamayıb, yalnız öz dövrünün qayğıları ilə məşğul olmayıb. Azərbaycanı bəşər sivilizasiyasının beşiyi olan ölkələrdən biri, xalqımızı isə zəngin və unikal bir mədəniyyətin övladları adlandıran Heydər Əliyevin ən böyük xidmətlərindən biri də, məhz xalqımızın şərəfli tarixi keçmişini bərpa etməsi, milli-mənəvi irsimizin dəyərlərini özümüzə qaytarması, milli adət-ənənələrimizi yaşatması, Azərbaycançılıq məfkurəsinin və milli ruhun hədsiz yüksəlişi, milli özünüdərkin hər cür buxovlardan azad olunaraq, öz həqiqi təsdiqini tapması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularımızın real siyasi amilə çevrilməsinə nail olmasıdır. Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Onun qeyri-adi şəxsiyyəti, siyasətçi və dövlət xadiminə xas böyük istedadı bizim hamımıza, onun müasirlərinə və həmvətənlərinə dərin təsir bağışlayır və siyasətçilərin, tədqiqatçıların və jurnalistlərin diqqətini ona cəlb edir. Heydər Əliyev fenomeninə maraq illər ötdükcə azalmır, əksinə, getdikcə daha da artır. Ölkəmizdə və xaricdə çap edilən bir çox yazılarda, tədqiqatçıların əsərlərində biz Heydər Əliyevin həyat və fəaliyyətinin, siyasətinin və mahir idarəçilik bacarığının yeni-yeni cəhətlərini görürük.

XX əsrdə Azərbaycanın yetirdiyi ən böyük şəxsiyyət - ümummilli liderimiz Heydər Əliyev müasir dövlətimizin ideoloji-siyasi əsaslarını tarixi irs və milli-mənəvi dəyərlər zəminində yaradaraq onu praktik surətdə gerçəkləşdirmiş dahi strateqdir. Yalnız bir yolla - bütöv və tam həqiqətin yolu ilə gedən və böyük uğurlar qazanan ulu öndər Azərbaycan xalqının tarixində şanlı salnamələr açmışdır. Reallıq və həqiqət böyüklük və qüvvət əlamətidir. Öz təbiəti etibarilə cəmiyyəti həmişə irəli aparan, qabaqcıl və mütərəqqi qüvvələrə dayaq olan, sabahkı gün, insanların xoş gələcəyi, gözəl arzular və xəyallar haqqında düşünən və onları reallığa çevirən bir şəxsiyyətin həyat amalı ancaq həqiqət konsepsiyasına bağlı idi. "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub" - deyən böyük rəhbərin dövlətçiliyimizin ən ağır günlərində göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib. Əsl vətəndaş, tarixi şəxsiyyət və ümummilli lider kimi Heydər Əliyev millətini, torpağını fəlakətdən qurtarıb, onu çevriliş, qiyam cəhdlərindən hifz edərək dirçəliş və inkişafa doğru yönəldib, cəmiyyətdə özünəinam hissini bərpa edib, ölkəmizdə sabitlik və firavanlığa təminat yaradıb. Ümummilli liderimiz Heydər Əliyev fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyinə xidmət etmiş, Azərbaycan dövlətinin, Azərbaycan xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışmış, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, demokratiyanın genişləndirilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün mümkün ola bilən hər bir işi görmüşdür.

Bu gün daha çox Ulu öndər Heydər Əliyevin müstəqillik dövründə Azərbaycan Respublikasına rəhbərliyi zamanı gördüyü işlərdən geniş bəhs edilir. Ancaq unutmaq lazım deyil ki, dövlətçilik tariximizin özünəməxsus bir mərhələsi olan Sovet dövründə də bu böyük siyasətçi və dövlət xadimi, milli inkişafımız baxımından əvəzolunmaz nailiyyətlərə imza atmışdır. Bildiyimiz kimi, 1969-cu ilədək Azərbaycan SSRİ-nin tərkibində yalnız xammal mənbəyi kimi çıxış edir, bütün sahə və istiqamətlər üzrə ən geridə qalmış ölkələrin başında gəlirdi. Respublikamızın inkişafı üçün əhəmiyyətli resurs və potensial mövcud olsa da, onlardan səmərəli surətdə istifadə edilməməsi tənəzzül meyillərinin əsasında dayanan başlıca faktor idi. Amma Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olması ölkəmizin Sovet dövrü tarixində dönüş nöqtəsi oldu. Ulu öndər Heydər Əliyev fundamental strateji tədbirlər görməklə, davamlı və nizamlı inkişafı təmin etməyi bacardı. Sürətli sənayeləşmə kursu seçildi və qısa zaman kəsiyində sənaye sahəsinin inkişafında mühüm irəliləyişlər qeydə alındı. Ardıcıl surətdə sənaye müəssisələri tikilib istifadəyə verildi ki, bu da davamlı inkişaf konsepsiyasının həyata keçirilməsini təmin edən əsaslardan biri oldu. Qısa müddətdə Azərbaycan İttifaq səviyyəsində sənaye istehsalının artım sürətinə görə ilk yerdə qərarlaşdı. Bununla yanaşı, kənd təsərrüfatı sənaye təməli üzərində inkişaf etdirildi və istehsal olunan məhsulların orta illik həcmi mütəmadi surətdə atırıldı.

Artıq 1982-ci ildə kənd təsərrüfatı məhsullarının istehsal həcmi ilk dövrlərlə müqayisədə 6 dəfə artırılmışdı ki, bu da aqrar sektorun inkişafı yönündə həyata keçirilən siyasətin səmərəliliyindən xəbər verirdi. Eyni zamanda, Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə neft sənayesində də tənəzzül meyilləri aradan qaldırıldı və bəhs edilən sahədə ehtiyatlardan səmərəli istifadə etməklə davamlı və nizamlı inkişafın əsası qoyuldu. Nəticə etibarilə, neft hasilatı xeyli artırıldı. Strateji sahə olan təhsil sektorunda da ardıcıl və davamlı islahatlar həyata keçirildi ki, bu da kadr potensialının formalaşdırılması və təkmilləşdirilməsi işinə fundamental töhfələr bəxş etmiş oldu. Əvvəla, təhsil sektorunun maddi-texniki bazası yaxşılaşdırıldı. Ulu öndər Heydər Əliyevin xüsusi diqqət və qayğısının fonunda kadr potensialının formalaşdırılması və təkmilləşdirilməsi istiqamətində azərbaycanlı gənclər SSRİ miqyasında fəaliyyət göstərən ali təhsil müəssisələrinə göndərildilər.

Ümumilikdə, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə SSRİ-nin ən nüfuzlu ali təhsil müəssisələrində 18 minədək yüksək ixtisaslı mütəxəssis hazırlandı. Bu isə milli inkişafın intellektual əsaslarının möhkəmlənməsinə fundamental töhfə idi. Bununla yanaşı, azərbaycanlı gənclərin SSRİ miqyasında fəaliyyət göstərən nüfuzlu ali təhsil məktəblərinə göndərilməsi milli mədəniyyətimizin təbliği və möhkəmləndirilməsi, milli diaspor quruculuğunun formalaşdırılması işinə mühüm strateji töhfələr bəxş etdi. Sonralar Ulu öndər Heydər Əliyev bu missiya və prosesi məhz belə dəyərləndirirdi: "O vaxtlar azərbaycanlıları ayrı-ayrı yollarla sovetlər ittifaqının müxtəlif yerlərinə göndərməklə, dayaq yaratmaq istəyirdim. İndi isə sərhədlər açılıb, azərbaycanlılar hər yerdə yaşaya bilər. Bir şərtlə ki, gərək, millətini, dinini, torpağını və ana vətənini unutmayasan".

Bunlardan başqa, milli-mənəvi dəyərlərin qorunması və dirçəldilməsi istiqamətində əhəmiyyətli tədbirlər görüldü. Musiqi, teatr, kino, təsviri incəsənət və digər sahələrdə xüsusi dəyişikliklər və inkişaf meyilləri qeydə alındı. Mədəniyyət evləri inşa edildi, abidələr ucaldıldı, incəsənət xadimlərinə fəxri adlar, ordenlər, təqaüdlər ayrıldı. Bütün bunlar isə cəmiyyətin intellektual təbəqəsinin fəaliyyət mexanizminin səmərəlilik səviyyəsini daha da artırdı. 1978-ci ildə Heydər Əliyevin cəhdləri və təşəbbüsü sayəsində Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Bu, milli dilimizin mühafizəsi və təbliği baxımından mühüm tarixi hadisə idi. Bunun ardınca "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı. Beləliklə, Ulu öndər Heydər Əliyevin 1969-1982-ci illər ərzində ölkəyə rəhbərlik etdiyi dövrdə həyata keçirilən islahatlar və görülən strateji tədbirlərin fonunda respublikamız sürətlə inkişaf edərək SSRİ miqyasında xüsusi çəkiyə malik olan respublikaya çevrildi.

Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü də Onun xalqımız və dövlətçiliyimiz qarşısındakı tarixi fəaliyyətini, misilsiz xidmətlərini göstərən mühüm mərhələdir. Məlum olduğu kimi, 1990-cı ildə Azərbaycan olduqca mürəkkəb situasiyada idi. SSRİ-nin dayaqlarının sarsıldığı bir dövrdə İttifaq miqyasında baş alan hərc-mərclik ölkələrin daxili həyatına da sirayət etmiş və idarəetmə potensialı və qabiliyyəti aşağı olan ölkələrdə çox mürəkkəb siyasi-hüquqi kataklizmlər cərəyan etməkdə idi. Eyni zamanda, Muxtar Respublikanın blokada şəraitində olması, sosial-iqtisadi durumunun bərbadlığı, hakimiyyətin muxtar qurum üzərində oynamağa çalışdığı oyunlar Naxçıvanın vəziyyətini maksimum dərəcədə mürəkkəbləşdirmişdi. Mövcud durum 1991-ci ilin sentyabr ayında Ulu öndər Heydər Əliyevin Naxçıvan MSSR-in Ali Sovetinin sədri seçilməsinədək olan tarixi mərhələdə daha da kəskinləşdi. Müharibənin davam etdiyi, sənaye məhsullarının çatışmadığı, elektrik enerjisinin olmadığı, sosial-iqtisadi durumun kəskin olduğu şəraitdə Ali Məclisin sədri seçilən Heydər Əliyev həyata keçirdiyi islahatlar, gördüyü tədbirlər və işlər sayəsində sabitliyin, tərəqqinin və həmrəyliyin təmin olunmasına nail oldu. Ümumiyyətlə, Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövründə gördüyü işlərin mahiyyətini və əzəmətini anlamaq üçün sadəcə, bir neçə fakta nəzər yetirmək kifayət edir. Belə ki, milli dövlətçilik ənənələrinin bərpa olunması yönündə görülən işlər sırasında Muxtar Respublikanın dövlət rəmzlərinin bərpa olunması və milliləşdirmə siyasətinin həyata keçirilməsi vurğulanmalıdır. 17 noyabr 1990-cı il tarixində Naxçıvan Ali Məclisinin I sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımız qaldırıldı. Milli bayraq məsələsi ilə əlaqədar 2 bəndlik qərar qəbul edildi. Bununla yanaşı, Naxçıvan MSSR adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı. SSRİnin mövcud olduğu bir dövrdə belə bir qərarın qəbul və icra edilməsi olduqca yüksək siyasi səriştə və cəsarət tələb edirdi ki, Ulu öndər Heydər Əliyev bunu nümayiş etdirdi. Eyni zamanda, Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Sovet ordusu, əsgəri birlikləri Naxçıvan MR ərazisindən çıxarıldı.

Ardı Səh. 5

# Heydər Əliyevsiz 14 il: Ulu Öndərin zəngin dövlətçilik irsi əbədiyaşardır

Əvvəli Səh. 4

O zaman Azərbaycanda hakimiyyətdə olan səriştəsiz qüvvələr korporativ maraqlar əsasında çıxış edərək, sabitliyə və inkişafa mane olmaq yönündə xüsusi fəallıq göstərirdilər ki, bu da Naxçıvanın durumuna mənfi təsir edən destruktiv faktor qismində çıxış edirdi. Hətta iş o həddə çatmışdı ki, xarici güc mərkəzlərinin "marionetka"ları qismində çıxış edən hakimiyyətdəki "piyada"lar Naxçıvanda bir neçə dəfə dövlət çevrilişinə cəhd etdilər. Bunlardan ilki Xalq Cəbhəsinin Naxçıvandakı 24 oktyabr 1992-ci ildə silahlı dəstələrinin Muxtar Respublikada etdiyi çevriliş cəhdi oldu. Amma Ulu öndər Heydər Əliyevin siyasi məharəti sayəsində bəhs edilən çevriliş cəhdlərinin qarşısı alındı. Bunlarla yanaşı, Ulu öndər Heydər Əliyev milli ideoloji məsələləri önə çəkərək bir sıra təxirəsalınmaz tədbirlər gördü və tarixi qərarlar qəbul etdi. İlk növbədə "1990-cı il yanvar ayının 20-də törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərar qəbul edildi. Qərarda 20 Yanvar hadisələrinin mahiyyəti, siyasi və hüquqi əsasları əks olunmuşdu. Eyni zamanda, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilməsi barədə də tarixi qərar qəbul edildi. Bütün bunlarla yanaşı, Naxçıvan MR-də sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması və tərəqqi meyillərinin əldə olunması üçün əhəmiyyətli tədbirlər görüldü. Sosial-iqtisadi və aqrar islahatlar reallaşdırıldı, özəlləşdirmə prosesinə start verildi və infrastruktur sahələrinin inkişafı yönündə xüsusi işlər həyata keçirildi.

Digər tərəfdən, blokada şəraitində olan Muxtar Respublikanın inkişafı və sabitliyinin davamlılığını təmin etmək üçün regional miqyasda rasional strateji münasibətlər sistemi formalaşdırmaq lazım idi ki, Ümummilli lider Heydər Əliyev bu yöndə strateji addımlar atdı. Xüsusilə də Türkiyə və İranla qarşılıqlı əməkdaşlığa və tərəfdaşlığa əsaslanan rəsmi təmaslar sıxlaşdırıldı. 24 mart 1992-ci il tarixində Ankarada Naxçıvan MR-lə Türkiyə Cümhuriyyəti arasında işbirliyi protokolunun imzalanması blokada şəraitində olan Naxçıvanın vəziyyətinə əhəmiyyətli dərəcədə müsbət töhfə oldu. Beləliklə, siyasi fəaliyyətinin Naxçıvan dövründə Heydər Əliyev gördüyü işlər, atdığı rasional, praqmatik addımlarla Muxtar Respublikanın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etmiş oldu. Bildiyimiz kimi, 18 oktyabr 1991-ci il tarixində Azərbaycan Respublikası Ali Sovetinin cari sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına müvafiq olaraq, formal müstəqillik əldə etmiş Azərbaycan Respublikası müstəqilliyin ilk illərində



kompleks problemlər və dərin kataklizmlərlə üzləşdi. Təbii ki, bunun bir sıra obyektiv və subyektiv səciyyə daşıyan fundamental səbəbləri var idi. Bu səbəblərin başında isə həmin vaxt Respublikaya "rəhbərlik" edən subyektlərin qətiyyətsizliyi, Moskvanın kölgəsi altında, "kölə psixologiyası" ilə yaşamaq niyyətləri və bu rəhbərlərin xalqın ali mənafeyini mərkəzin imperialist maraqlarına qurban verməlləri dayanırdı.

Bütün mahiyyəti və mövcudluğu ilə Kremldən asılı olan o zamankı Azərbaycan rəhbərliyi müstəqillik ideyalarını, prinsiplərini qəbul etmək, mənimsəmək iqtidarında deyildi. Məhz Azərbaycanın o zamankı iqtidarının müstəqillik ideyalarına etinasız olmasının nəticəsi idi ki, şəraitdən istifadə edən təcavüzkar Ermənistan strateji baxımdan ən əlverişli ərazilərimizi anneksiya etdi. Hələ bu, son deyildi. Xalqımızın bir sıra ictimai-siyasi xadimlərinin terror aktlarına məruz qalmaları, dövlət strukturları arasında çəkişmələrə start verilməsi və bunların daha kəskin xarakter alması Azərbaycanın bir dövlət kimi varlığını sual altına almışdı. Mövcud vəziyyətdən çıxışı təmin edə bilməyəcəyini anlayan Ayaz Mütəllibov hakimiyyəti çarəni istefa verməkdə gördü. Bundan sonra hakimiyyətə gəlmiş AXC-Müsavat cütlüyü Azərbaycanı sözün əsl mənasında xarici kəşfiyyat orqanlarının mübarizə meydanına çevirdi. Ölkədə tam bir anarxiya yarandı və daxili çəkişmələr özünün pik nöqtəsinə çatdı. Artıq "əlinə silah alan" hakimiyyəti ələ keçirməyə çalışırdı və bölücü meyillər olduqca güclənmişdi. Ermənistanın təcavüzü davam edir və xarici dövlətlər beynəlxalq münasibətlər sistemində Azərbaycanı müstəqil subyekt kimi qəbul etmirdilər. Həmin ərəfədə güclü siyasi liderin nüfuzuna söykənən mütəşəkkil siyasi subyektlər lazım idi ki, Azərbaycanı anarxiya meyilləri ilə müşayiət edilən xaotik durumdan xilas etsin. Amma 1993-cü ilədək ölkəyə rəhbərlik edən şəxslər xarici qüvvələrin "piyada"sı kimi çıxış etməkdən başqa, xalqımız, dövlətçiliyimiz üçün heç bir önəm kəsb edə bilmədilər. Beləliklə, müstəqilliyin ilk illərində Azərbaycan çox ciddi problemlərlə üzləşdi və sistematik strategiyanın həyata keçirilməməsi nəticəsində kataklizmlər iqtisadi, siyasi, sosial, hüquqi və digər sahələri iflic etdi, ölkədə vətəndaş müharibəsi, separatizm təhlükəsi artdı. Bu durum 1993-cü ilə, Ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəlməsinədək davam etdi. Ölkəmizdə hökm sürən xaotik və anarxist meyilllərin neytrallaşdırılmasında, mürəkkəb siyasi-hüquqi kataklizmlərin qarşısının alınmasında və ictimai-siyasi sabitliyin əldə edilməsində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin liderlik keyfiyyətləri birinci dərəcəli amil kimi xüsusi rol oynadı. Ulu öndər ölkədə sabitliyi bərpa etdi, sosial-iqtisadi tənəzzülün qarşısını aldı, müstəqilliyin əsaslarını möhkəmləndirmək istiqamətində addımlar atdı.

Ulu öndər Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətlərindən biri ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılmasıdır. Müstəqillik əldə etdikdən sonra xaotik və antaqonist siyasi proseslərin fonunda ölkəmizin qarşısında duran başlıca strateji vəzifələrdən biri də ictimai-siyasi institutlaşma prosesinin həyata keçirilməsi idi. Bunun başlıca istiqamətlərindən biri də plüralist prinsiplər əsasında müxtəlif orientasiyalara malik olan siyasi partiyaların təsis edilməsi və onların fəaliyyət mexanizmlərinin milli maraqlar və dəyərlər əsasında təşkilinə şərait yaradılması idi. Beləliklə, hakim dairələrin törətdikləri süni maneələrə baxmayaraq, ölkə ziyalılarının təkidli çağırışları və xalqın etimadı sayəsində 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. O zamankı hakimiyyət dairələrinin Yeni Azərbaycan Partiyasının yaranmasına göstərdikləri maneələr, ardıcıl təzyiqlər bu yola qədəm qoyan insanları özlərinin ali məqsədlərindən döndərə bilmədi. Ümummilli liderimizin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi misilsiz etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Yeni Azərbaycan Partiyası dünyada analoqu olmayan bir siyasi təşkilat kimi yarandığı müddətdən 6 ay sonra siyasi hakimiyyətə gəldi. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən sistematik strategiyanın əsasında siyasi sistemin təməl atributları və struktur elementlərinin dirçəldilməsi və təkmilləşdirilməsi, ictimai-siyasi institutlaşma prosesinin sürətləndirilməsi, inzibati səciyyə daşıyan struktur islahatlarının həyata keçirilməsi, siyasi plüralizmin təmin edilməsi və bütün bunların əsasında demokratik transformasiyanın milli dəyərlərə və maraqlara müvafiq surətdə baş tutması kimi fundamental strateji vəzifələr dayanırdı. Zəngin dövlətçilik təcrübəsinə, rasional təfəkkürə və praqmatik fəaliyyət mexanizminə malik olan Ümummilli lider Heydər Əliyev tətbiq etdiyi strategiya sayəsində mərhələli şəkildə bütün bu vəzifələrin həllinə nail ola bildi. Məhz sadalanan vəzifələrin yerinə yetirilməsi istiqamətində hüquqi-normativ bazanın yaradılması strateji əsas oldu. Beləliklə, xalqımızın Əbədiyaşar lideri Heydər Əliyevin gərgin əməyi sayəsində 1995-ci il noyabr ayının 12-də xalq referenduma gedərək öz dövlətçiliyinin əsas hüquqi istiqamətlərini müəyyənləşdirəcək başlıca siyasi-hüquqi sənəd olan Azərbaycan Respublikasının Konstitusiyasını qəbul etdi. Yeni Konstitusiya dövrün tələbləri, reallıqları və qanunauyğunluqlarına görə mükəmməl və təkmil siyasi-hüquqi sənəd idi. Konstitusiyanın hazırlanmasında dünya dövlətlərinin konstitusiya təcrübəsindən geniş istifadə edilməsi ilə yanaşı, respublikamızın tarixi ənənələri, spesifik özəllikləri və xalqımızın mentaliteti də nəzərə alınmışdı.

Müstəqillikdən sonra ölkəmizin qarşısında duran növbəti vəzifə milli həmrəylik və bütövlüyü təmin edəcək fundamental mənəvi faktor olan milli ideologiyanın müəyyən edilməsi və ondan milli siyasətin tərkib hissəsi kimi səmərəli istifadə mexanizminin həyata keçirilməsi idi. Amma müstəqilliyin ilk illərində mövcud olan siyasi hərc-mərclik və vahid dövlət siyasətinin olmaması bütün sahələrdə olduğu kimi, milli ideoloji siyasət sahəsində də güclü mərkəzdənqaçma meyillərinin müşahidə olunmasına və nəticə etibarilə bu sferada ciddi boşluqların yaranmasına səbəb olmuşdu. Bu baxımdan, qürur və minnətdarlıq hissi ilə xüsusi vurğulamaq istərdik ki, Azərbaycan dövlətçiliyində Heydər Əliyevin adı ilə bağlı olan əsas məqamlardan biri də məhz dövlətçiliyin təməl prinsiplərdir. Bu təməl prinsipləri yalnız bu gün üçün deyil, eyni zamanda gələcəyə yönəlib. Hər bir xalq öz dövlətçiliyinin idarə olunmasında müəyyən ideoloji prinsiplərə söykənir. İdeologiyasız dövlətçilik mümkün deyil və xalq səfərbəredici ideyaya söykənmədən irəli gedə bilməz. Dünyanın aparıcı dövlətlərinin keçdiyi tarixi inkişaf yoluna nəzər salsaq, onların müəyyən prinsiplərə söykəndiyini görərik. Heydər Əliyev Azərbaycan dövlətinin ideoloji cəhətdən altı təməl prinsipini müəyyənləşdirib. Bunlardan birincisi müstəqil dövlətçilik prinsipidir. Müstəqil dövlətçilik prinsipinin qayəsini Azərbaycanın müstəqilliyinin hər şeydən uca olması, suverenliyinin qorunması üçün bütün vasitələrdən istifadə olunmasının zəruriliyi ideyası təşkil edir. Müstəqil dövlətçilik prinsipi - hər şey dövlət naminə şüarına söykənir. Azərbaycanda müstəqil dövlətin qurulması yolunda Heydər Əliyevin hələ sovetlər dönəmindən başladığı işlər nəticə etibarilə bu prinsipin reallaşması ilə başa çatdı. Heydər Əliyevin sayəsində Azərbaycanın müstəqilliyinin dönməzliyi tam təmin olundu.

Ardı Səh. 6

# Heydər Əliyevsiz 14 il: **Ulu Öndərin zəngin dövlətçilik irsi əbədiyaşardır**

Əvvəli Səh. 5

Azərbaycançılıq prinsipi - bu prinsip bütövlükdə Heydər Əliyev ideologiyasının ana xəttini təşkil edir. Azərbaycançılıq dünyada olan azərbaycanlıların vahid bir ideya ətrafında birləşməsini, eyni zamanda Azərbaycanda yaşayan hər bir vətəndaşın dövlətə, xalqa bağlılığını zəruri edir. Azərbaycançılıq dünyada olan azərbaycanlıları müstəqil Azərbaycan uğrunda mübarizədə səfərbər edir. Qanunçuluq prinsipi - qanun alidir və hər kəs ona tabe olmalıdır. Tutduğu mövqedən, cəmiyyətdəki fəaliyyətindən asılı olmayaraq bütün vətəndaşlar qanuna əməl etməlidirlər. Bu baxımdan qanunçuluq Heydər Əliyevin Azərbaycan dövlətçiliyi üçün müəyyən etdiyi əsas prinsiplərdən biridir. Varislik prinsipi - burada söhbət siyasətin varisliyindən gedir. Belə ki, Heydər Əliyev tərəfindən müəyyənləşdirilən böyük siyasət davamlı olmalıdır. Konstruktiv əməkdaşlıq prinsipi - bu prinsip vətəndaş həmrəyliyini özündə əks etdirir. Vətəndaş həmrəyliyi dünən də lazım idi, bu gün də lazımdır, sabah da lazım olacaq. Çünki istənilən cəmiyyətdə iqtidar-müxalifət mübarizəsi, bu və ya digər məsələdə fikir ayrılığı ola bilər. Bu mübarizə konstruktiv şəkildə, qanun çərçivəsində getməlidir. Bu mübarizə eyni zamanda, vətəndaş həmrəyliyində özünü büruzə verməlidir. Bir-birinə əks ideyalar ortaya qoyan qüvvələr nəticə etibarilə ölkəmizin maraqları naminə birləşməli, vətəndaş sülhünü, həmrəyliyini qorumalıdırlar. Bu prinsip daim Heydər Əliyev tərəfindən qorunub.

Heydər Əliyevin yaratdığı, qurucusu olduğu Yeni Azərbaycan Partiyası 1992-ci ildən siyasi arenadadır. YAP müxalifətdə olduğu dövrdə də konstruktivlik nümayişi etdirmiş, vətəndaş sülhünə və həmrəyliyinə əməl etmişdir. Heydər Əliyevin müəyyən etdiyi bu siyasət YAP-ın fəaliyyətində həmişə özünü büruzə verib. Sosial ədalət prinsipi - Heydər Əliyev siyasətində sosial ədalət önəmli yer tutur. Sosial ədalət olmayan cəmiyyətlərdə insanlar arasında hansısa bir sülhdən, əməkdaşlıqdan söhbət gedə bilməz. Cəmiyyətdə bazar münasibətlərinin inkişafı sosial ədaləti inkar etmir. Dövlətin sosial müdafiə siyasəti həmişə qorunub saxlanılmalıdır. Sosial ədalət vətəndaşın daim dövlətin himayəsində olması deməkdir. Heydər Əliyev böyük şəxsiyyət olaraq Azərbaycan dövlətçiliyinin əbədi mövcudluğu üçün zəruri əsaslar formalaşdırmaqla kifayətlənməmiş, həmçinin bu dövləti yeni əsrdə inamla irəli aparacaq, əzmlə inkişaf etdirəcək, bir sözlə, alternativsiz siyasi kursun davamlılığını bütün sahələrdə təmin edəcək lider yetişdirmişdir.

Son səkkiz ildə ulu öndərin siyasətini uğurla davam etdirən dövlət başçısı İlham Əliyev qısa müddətdə xalqın layiqli rəhbəri və lideri olduğunu əməli işi ilə sübuta yetirmiş, hər bir azərbaycanlının Prezidenti olmuşdur. Cənab İlham Əliyevin respublikaya rəhbərliyi dövründə əldə edilmiş böyük nailiyyətlər Azərbaycan xalqının öz seçimində dəfələrlə haqlı olduğunu bir daha təsdiqləyir. Bu gün Azərbaycan və onun istiqlaliyyəti üçün ən mühüm təminat faktoru odur ki, ulu öndərin bərqərar etdiyi güclü dövlətçilik xəttini uğurla davam etdirən lideri var. Azərbaycan Prezidentinin rəhbərliyi ilə görülən işlər, əldə olunan uğurlu nəticələr hələ ötən əsrin 90-cı illərinin ortalarından böyük rəhbər Heydər Əliyev tərəfindən başlanmış çoxşaxəli islahatlar kursunun məntiqi davamıdır. Qürur və məmnunluq hissi ilə deyə bilərik ki, Heydər Əliyev siyasi kursu 2003-cü ildən Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Uğurlarımız ümummilli lider Heydər Əliyevin 2003-cü il prezident seçkilərindən öncə xalqa müraciətini xatırlatmağı zərurətə çevirir: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Prezident kimi fəaliyyətə başladığı gündən görəcəyi işlərin prioritetlərini açıqlayan, "Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacaq, heç vaxt bu yoldan dönməyəcəyəm" - söyləyən cənab İlham Əliyev atdığı hər addımında bu vədinə sadiqliyini nümayiş etdirir. 2003-2008-ci illərdə verilən hər vədin konkret işlərdə öz əksini tapması, ayrı-ayrı sahələri əhatə edən Dövlət Proqramlarının uğurlu icrası, iqtisadi göstəricilərin təkcə rəqəmlərdə deyil, insanların gündəlik həyatında öz əksini tapması Xalq-Prezident birliyini, həmrəyliyini daha da möhkəmləndirdi, 2008-ci ildə keçirilən prezident seçkilərində cənab İlham Əliyevin yenidən Prezident seçilməsinə stimul verdi.

Həyata keçirilən siyasətin əsasında Azərbaycan vətəndaşının dayandığını qeyd edən dövlət başçısı İlham Əliyev Dövlət Proqramlarının uğurlu icrasında da bu dəstəyin rolunu xüsusi vurğulayır. Güclü sosial siyasətə yol açan iqtisadi tərəqqinin artması üçün bütün imkanlar mövcuddur. Azərbaycanın özünü dünyaya sosial dövlət kimi təqdim etməsi də əldə olunan uğurlara söykənir. Neft gəlirlərindən səmərəli istifadə nəticəsində iqtisadiyyatın şaxələndirilməsi Azərbaycanın dünyanı bürüyən iqtisadi və maliyyə böhranından uğurla çıxmasına səbəb oldu.

"Biz siyasətimizi elə aparmalıyıq ki, sanki Azərbaycanda neft yoxdur. İqtisadiyyatın bütün sahələri - ilk növbədə qeyri-neft sektoru, infrastruktur inkişaf etməlidir. Ancaq bu yolla biz Azərbaycanı hərtərəfli inkişaf etmiş ölkəyə çevirə bilərik". Prezident İlham Əliyevin on il bundan əvvəl səsləndirdiyi bu istək artıq reallığa çevrilib. Bu gün ÜDM-də özəl bölmənin payının 85 faiz təşkil etməsi qeyri-neft sektorunun inkişafına yönələn diqqətin bariz nümunəsidir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarında qarşıya qoyulan vəzifələrin uğurlu həlli ilə Azərbaycan ən ucqar kəndləri də daxil olmaqla böyük quruculuq meydanını xatırladır. Artıq keçid dövrünü başa vuraraq beynəlxalq standartlara və bazar iqtisadiyyatının müasir tələblərinə uyğun layihə və islahatların tətbiqinin davam etdirilməsini vacib hesab edən Prezident İlham Əliyev başlıca amil kimi neft strategiyasının daha geniş miqyasda həyata keçirilməsi, dünya siyasətinə uyğunlaşdırılması, demokratiyanın tam qələbəsi naminə inamlı addımlar atır. Bu gün Azərbaycanın ən mötəbər tədbirlərə ev sahibliyi etməsi, üçrəngli bayrağının dünyanın nüfuzlu təşkilatlarının qarşısında dalğalanması, beynəlxalq aləmdə iqtisadi möcüzələr ölkəsi, sosial dövlət kimi nüfuz qazanması Heydər Əliyev siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir. Təsadüfi deyil ki, Azərbaycan 193 ölkədən 155-nin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Qurumda ilk olaraq ədaləti müdafiə edəcəyimizi bəyan edən dövlət başçısı İlham Əliyev bu uğuru tarixi hadisə kimi dəyərləndirdi.

Müstəqilliyinin 20-ci ilində Azərbaycanın 155 ölkənin dəstəyini qazanaraq quruma qeyri-daimi üzv seçilməsi keçilən yola, əldə edilən uğurlara verilən dəyər kimi qəbul olundu. Bu uğurumuzun yeganə problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinə öz müsbət təsirini göstərəcəyi inkaredilməzdir. Ümumiyyətlə, hər bir sahənin inkişafı dövlətin siyasətində əsas yer tutur. Bu diqqət hər ili bu və ya digər sahənin adı ilə bağlayaraq, həmin il çərçivəsində həyata keçirilən tədbirlərin miqyasının genişləndirilməsində də aydın görünür. İdman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, tikilmiş müasir olimpiya kompleksləri və digər tədbirlər nəticəsində ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilib. Avropa Olimpiya Komitəsinin 2015-ci ildə Birinci Avropa Olimpiya Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarı da deyilənlərin təsdiqidir.

Prezident İlham Əliyev bu münasibətlə Azərbaycan xalqına təbrikində bildirmişdir ki, Azərbaycan bu gün dünyada və Avropada idman dövləti kimi tanınır: "Bizim uğurlarımız həm beynəlxalq yarışlarda əldə etdiyimiz medallarla ölçülür, eyni zamanda, Azərbaycanda, Bakıda yaradılmış müasir idman infrastrukturu da uğurlarımızı tamamlayır. Buna Azərbaycanda və Bakıda keçirilmiş dünya, Avropa çempionatlarını əlavə etsək, görərik ki, doğrudan da Azərbaycanda idman uğurla, sürətlə inkişaf edir".

Qeyd edək ki, XXX London Yay Olimpiya Oyunlarında Azərbaycanın 205 dövlət arasında 30-cu yeri tutması da böyük uğur olmaqla yanaşı, ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi idi. London Yay Olimpiya Oyunlarında 10 medal qazanan idmançılarımız Azərbaycanın bayrağını yüksəklərə qaldıraraq, bir daha ölkəmizin təqdimatına öz töhfələrini verdilər. Ötən ilin mayında 42 ölkənin öz məşəlini Azərbaycanda alovlandırması da ölkə həqiqətlərimizin dünyaya təqdimatında əhəmiyyətli rol oynadı. Hər bir ölkəni dünyada tanıdan siyasəti ilə yanaşı, mədəniyyətinin də olduğunu nəzərə alsaq, Azərbaycanın "Eurovision-2012" mahnı yarışmasına ev sahibliyi etməsinin ölkələr arasında əlaqələrin inkişafında körpü rolunu aydın görərik.

Uğurlarımız davamlıdır. Bu davamlılığı şərtləndirən əsas amil möhkəm təmələ əsaslanan inkişaf strategiyasıdır. İnkişafın Azərbaycan modelinin mövcudluğu, onun başqa ölkələrə nümunə göstərilməsi böyük uğurdur. Dövlət başçısı İlham Əliyevin ölkəmizin 20 illik müstəqillik tarixində qazandığı uğurların fonunda qarşıdakı illər üçün hədəfləri və onlara nail olmağın yollarını müəyyənləşdirməyə xidmət edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə sərəncamı nəinki ölkə daxilində, beynəlxalq səviyyədə yüksək dəyərləndirildi. Azərbaycanı yaxın on ildə inkişaf etmiş ölkələr sırasında görmək istəyini ortaya qoyan Prezident İlham Əliyev bu günə qədər 3 dəfə artan ümumi daxili məhsulun daha 2 dəfə artırılmasını qarşıya mühüm vəzifə kimi qoyur. Ölkəmiz keçid dövrünü başa vuraraq qlobal və regional çağırışlar fonunda kəmiyyət və keyfiyyət etibarilə yeni dövrün astanasındadır. Azərbaycanın əldə etdiyi tarixi nailiyyətlərin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi, qlobal və regional çağırışlara cavab verərək ölkəmizin dünya nizamında öz mövqeyini gücləndirməsi üçün Prezident İlham Əliyevin "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə sərəncam Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılan milli inkişaf modelinə uyğundur. Sülh və inkişaf Azərbaycan dövlətinin strategiyasının təməlini təşkil edir. Qeyd etdiklərimizin fonunda bir daha bu reallıq aydın dərk olunur ki, düzgün seçilən yol, möhkəm təmələ əsaslanan siyasət ölkənin davamlı inkişafını təmin edir, beynəlxalq münasibətlər sistemində yeri və rolunu möhkəmləndirir. Güclü, qüdrətli Azərbaycan hər birimizin qürur mənbəyidir. Xalqımız tam əmindir ki, yeganə problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də tezliklə öz ədalətli həllini tapacaq, soydaşlarımız öz doğma yurd-yuvalarına qayıdacaq, Azərbaycan daha böyük uğurlara imza atacaq.

Ümumiyyətlə, Heydər Əliyevin zəngin siyasi irsi, idarəçilik təcrübəsi, siyasi elmə gətirdiyi yeniliklər zaman keçdikcə dünya politoloqları, analitik mərkəzləri tərəfindən daha diqqətlə, daha dərindən öyrəniləcək, müasir siyasi idarəçilikdə geniş tətbiq ediləcəkdir. Heydər Əliyev öz ölümü ilə ölməzliyə qovuşdu, xalqın taleyində liderlik missiyasını davam etdirdi, cəmiyyətimizi daha sıx birləşdirdi. Onun ideyaları və əməli fəaliyyəti dövlət quruculuğunun, sosial-iqtisadi və mədəni-mənəvi inkişafımızın bütün istiqamətlərində yolumuza həmişə işıq salaraq, bu gün də, sabah da Azərbaycanı firavan gələcəyə istiqamətləndirəcəkdir. Bəşər tarixi sübut edib ki, yalnız tək-tək dövlət başçıları öz xalqı qarşısındakı xidmətlərinə görə, ümummilli liderlikdən əlavə, həm də öz millətinin qəlbində və tarixində müqəddəslik zirvəsinə çata biliblər. Zəmanəmizin ən dahi şəxsiyyətlərindən biri, xalqımızın böyük oğlu Heydər Əliyevə də, məhz öz millətinin qəlbində və onun çoxəsrlik tarixində müqəddəslik zirvəsinə yüksəlmək səadəti nəsib olub. Heydər Əliyev kimi xalqına hədsiz bağlı olan şəxsiyyətlərin ömrü onun yaşadığı illərlə ölçülmür. Öz millətinin taleyini yaşamış Heydər Əliyev indi də, gələcəkdə də qədirbilən xalqımızın qəlbində yaşayır və daim yaşayacaqdır.

# Böyük Britaniyanın Lordlar Palatasında İngiltərə-Azərbaycan Cəmiyyətinin ənənəvi Milad xeyriyyə yığıncağı və Cəmiyyətin 20 illik yubileyi qeyd edilib

***Dekabrın 8-də Böyük Britaniya Lordlar Palatasının məşhur "The Peers" zalında İngiltərə-Azərbaycan Cəmiyyətinin (www.anglo-azerbaijani-society.com) ənənəvi illik Milad xeyriyyə yığıncağı, həmçinin Cəmiyyətin fəaliyyətə başlamasının 20 illik yubileyi qeyd edilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Cəmiyyətin Böyük Britaniya tərəfindən həmsədri, Britaniya Parlamentinin Lordlar Palatasının üzvü Lord German, İngiltərə-Azərbaycan Cəmiyyətinin Azərbaycan tərəfindən həmsədri, akademik Nərgiz Paşayeva, qurumun İcraiyyə Komitəsinin və Böyük Britaniya Parlamentinin üzvləri, Londonda akkreditə olunmuş diplomatik korpusun əməkdaşları, yerli və xarici iş adamları, Britaniyada təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.***





Tədbiri giriş sözü ilə açan Lord German Cəmiyyətin Azərbaycan tərəfdən həmsədri akademik Nərgiz Paşayevaya təşkilatın fəaliyyətindəki böyük xidmətlərinə görə minnətdarlığını bildirib. Qonaqları salamlayan britaniyalı həmsədr İngiltərə-Azərbaycan Cəmiyyətinin bu yubiley tədbirində iştirak etdiklərinə görə onlara minnətdarlığını bildirib və qeyd edib ki, İngiltərə-Azərbaycan Cəmiyyəti artıq 20 ildir mədəniyyət, maarifçilik, humanitar, xeyriyyə kimi sahələrdə uğurla fəaliyyət göstərir.

Ötən 20 il ərzində Cəmiyyətin bütün üzvləri ilə birgə çalışan insanlara minnətdarlığını bildirən Lord German qeyd edib ki, 20 illik dövr uzun və şərəfli bir yol olub. Britaniyalı həmsədr deyib ki, Cəmiyyət bu illər ərzində yeni münasibətlər qurub, yeni dostlar qazanıb və bundan sonra da bu istiqamətdə işlərini davam etdirəcək. Lord German Cəmiyyətin ötən dövr ərzində Azərbaycan ilə Böyük Britaniya arasında körpü rolunu oynadığını qeyd edərək deyib: "Mən həmişə Azərbaycanı Şərq ilə Qərbin, Şimal ilə Cənubun ayrıcında olan ölkə kimi çox yüksək dəyərləndirirəm. İpək Yolu məhz bu ölkədən keçir və Azərbaycan hər zaman dünyanın müxtəlif ölkələrindən olan insanları qonaqpərvərliyi, tolerantlığı və zəngin mədəniyyəti ilə özünə cəlb edir. Məhz bu xüsusiyyətlər Azərbaycan xalqında dünya mədəni irsini daha yaxından öyrənməyi və digər mədəniyyətlərə hörmətlə yanaşmağı formalaşdırıb. Təbii ki, bizim bütün uğurlarımız sizlərin və bizi dəstəkləyən insanların köməyi olmadan mümkün olmazdı. Mən Cəmiyyətimizin idarə heyətinin üzvlərinə dərin təşəkkürümü bildirmək istəyirəm. Onlar uzun illərdir ki, Cəmiyyətimizin inkişafına səy göstəriblər".

Daha sonra çıxış üçün söz İngiltərə-Azərbaycan Cəmiyyətinin Azərbaycan tərəfdən həmsədri akademik Nərgiz Paşayevaya verildi.

Akademik Nərgiz Paşayeva tədbir iştirakçılarını salamlayaraq deyib: "Xanımlar və cənablar. Dəvətimizi qəbul edib buraya toplaşdığınıza görə hər birinizə təşəkkürümü bildirirəm. Tədbirimiz ənənəvi olaraq Milad bayramı ərəfəsində təşkil olunan xeyriyyə gecəsinə həsr edilir. Qeyri-adi və ecazkar əhval-ruhiyyə bəxş edən bu bayram hamı tərəfindən sevinclə qarşılanır. Qeyd edim ki, eyni zamanda, bu il bizim Cəmiyyət üçün fərqli bir ildir. Bizim artıq 20 yaşımız tamam olur. Əlbəttə, 20 il azdır, gənclik yaşıdır. Amma bu fikir bütün hallara aid olmur. Belə ki, ölkəmizin - ikinci dəfə müstəqillik qazanmış Azərbaycanın 25 yaşı, bizim isə 20 yaşımız tamam oldu. Bu illər ərzində Cəmiyyətimizin fəaliyyətində yaxından iştirak edən, layihələrimizdə əzmlə, sevgi ilə çalışan - humanitar, mədəni və xeyriyyə tədbirlərimizə dəstək verən insanlara dərin təşəkkürümü bildirmək istərdim. Başlanğıc şərəfli və uğurlu oldu və bizlər bu uğuru davam etdirməliyik. Artıq 10 ildir ki, mən həmsədr kimi burada çalışıram və bu illər ərzində özüm də çox şeylər öyrənmişəm. Ölkənizi - İngiltərəni daha yaxşı tanımış və daha çox sevmişəm.

Paytaxt London sadəcə böyük və gözəl şəhər olaraq qalmır. Bu şəhərdə müxtəlif yerlərdən gələn insanlar yaşayır. Şəhərin beynəlmiləl ruhu bu insanları birləşdirir. Azərbaycanın paytaxtı Bakı da həmişə beynəlmiləl şəhər olub.

Təsadüfi deyil ki, Avropada oxuyan azərbaycanlı tələbələrin ən böyük qismi Böyük Britaniyada təhsil alır. Əsas səbəblərdən biri odur ki, məhz burada o gənclər özlərini qürbətdə deyil, doğma yerdə hiss edirlər. 20 yaşı olan Cəmiyyətimizin mövcudluğu və varlığı həm Azərbaycanda, həm də Böyük Britaniyada yaşayan azərbaycanlılar üçün böyük əhəmiyyət kəsb edir. Cəmiyyətin Azərbaycan tərəfindən həmsədri olaraq missiyamızı gələcək nəsillərə ötürməyin vacibliyini yaxşı anlayıram. Əldə edilən nailiyyətləri, qurulmuş münasibətləri, iki ölkə arasında vətəndaş cəmiyyətlərinin birliyini, xeyriyyəçilik, maarifçilik, mədəni tədbirləri davamlı və möhkəm etmək bizim Cəmiyyətin əsas məqsədidir. İnanıram ki, belə də olacaq.

Bir daha hamınıza minnətdarlığımı bildirir, qarşıdan gələn Yeni ilinizi təbrik edir və sizlərə gözəl axşam arzulayıram".

Daha sonra Azərbaycanın Böyük Britaniyadakı səfiri Tahir Tağızadə çıxış edərək bildirib ki, İngiltərə-Azərbaycan Cəmiyyətinin 20 illik fəaliyyəti və uğurları Britaniya və Azərbaycan ictimaiyyəti tərəfindən qəbul olunub. O deyib: "Cəmiyyətin iki ölkə arasındakı mədəni əlaqələrinin inkişafı və yaxınlaşmasına verdiyi dəstək təqdirəlayiqdir. Təbii ki, ən böyük təqdirə və təşəkkürə bu Cəmiyyətin uğurlu inkişafında böyük xidmətləri olan akademik Nərgiz Paşayeva, Lord German və Cəmiyyətin digər dəyərli üzvləri layiqdir. Bir daha İngiltərə-Azərbaycan Cəmiyyətinin bütün üzvlərini şərəfli yubiley münasibətilə təbrik edirəm".

Tədbirdə İngiltərə-Azərbaycan Cəmiyyətinin İcraçı Komitəsinin üzvləri də çıxış etdilər. Tədbirin sonunda İngiltərə-Azərbaycan Cəmiyyətinin Azərbaycan tərəfindən həmsədri akademik Nərgiz Paşayeva Azərbaycan televiziyasına və AZƏRTAC-a müsahibə verib. Akademik Nərgiz Paşayeva deyib: "Bu gün Böyük Britaniya Parlamentinin Lordlar Palatasında ənənəvi olaraq İngiltərə-Azərbaycan Cəmiyyətinin illik xeyriyyə tədbiri keçirilir. Bu yığıncaq xüsusi bir tarixə də malikdir. Belə ki, biz İngiltərə-Azərbaycan Cəmiyyəti olaraq, 20 ildir Britaniyada fəaliyyət göstəririk. Başlıca cəhət ondan ibarətdir ki, bu Cəmiyyət İngiltərədə təsis olunmuş funksional, davamlı və uzun tarixə malik və müstəqil Azərbaycanı Böyük Britaniyada təmsil edən nüfuzlu bir təşkilatdır. İndiyə qədər Cəmiyyət haqqında yalnız müsbət rəylər söylənilib. Cəmiyyətin işi İngiltərə ictimaiyyəti tərəfindən dəstəklənib və qurumun yüksək hörməti və nüfuzu vardır. Bu xoş haldır və biz inanırıq ki, gələcəkdə İngiltərə-Azərbaycan Cəmiyyəti iki ölkə arasında mədəni, insani, tarixi və xeyriyyəçilik ənənələrini daha da möhkəmləndirəcək".

Böyük Britaniyanın keçmiş sənaye və energetika naziri, İngiltərə-Azərbaycan Cəmiyyətinin Britaniya tərəfindən ilk həmsədri olmuş Tim Eqqer Azərbaycan televiziyasına və AZƏRTAC-a verdiyi müsahibəsində qeyd edib: "Mən İngiltərə-Azərbaycan Cəmiyyətinin yaradıldığı dövrü yaxşı xatırlayıram. İlk günlərdən mən Cəmiyyətin üzvüyəm. Ötən 20 il ərzində bu Cəmiyyət iki ölkə arasında həm mədəni, həm də iqtisadi münasibətlərin möhkəmlənməsində mühüm rol oynayıb. Burada, Lordlar Palatasında yubileyin qeyd olunması mənim üçün həm sevindirici, həm də qürurvericidir".

Qeyd edək ki, 1997-ci ildə yaradılmış İngiltərə-Azərbaycan Cəmiyyəti Azərbaycan və Böyük Britaniya arasında mədəni, humanitar, xeyriyyə və digər bu kimi sahələrdə fəaliyyət göstərən təşkilatdır. Ölkələrimiz arasındakı dostluq münasibətlərinin inkişaf etdirilməsində qarşıya qoyduğu məqsədlərə və missiyalara uğurla nail olur. Özünün 20 illiyini fəxrlə qeyd edən İngiltərə-Azərbaycan Cəmiyyəti bu dövr ərzində müxtəlif, xüsusən də təhsil və mədəniyyət sahələrində uğurla həyata keçirdiyi bir sıra əhəmiyyətli layihələri qeyd etmək yerinə düşər. İngiltərə-Azərbaycan Cəmiyyəti bu illər ərzində Azərbaycanda müxtəlif xeyriyyə tədbirləri təşkil edib. Buna misal olaraq, Cəmiyyətin Gəncə şəhərində, Maştağa, Şağan və Saray qəsəbələrində yerləşən əqli və fiziki qüsurlu uşaq evlərində həyata keçirdiyi müəyyən təmir işlərini, həmin uşaq evlərində çalışan əməkdaşlar üçün Britaniyadan dəvət olunmuş mütəxəssislər tərəfindən təşkil edilən xüsusi təlim proqramlarını göstərmək olar. Cəmiyyət Ramana qəsəbəsində yerləşən əlillər evinin təmiri, həmçinin Azərbaycanda uşaq ölümlərini azaltmaq məqsədilə təsis olunmuş İngiltərənin "Health Prom" xeyriyyə cəmiyyətinin təklif etdiyi azərbaycanlı həkimlər üçün xüsusi təlimlərin keçirilməsi proqramına böyük dəstək verib. Talassemiya xəstəliyinin Azərbaycanda daha ixtisaslaşmış şəkildə müalicəsi üçün İngiltərə-Azərbaycan Cəmiyyəti tərəfindən Britaniyadan ixtisaslı mütəxəssislərin və laboratoriya texnoloqlarının Bakıya və bu sahədə çalışan Azərbaycan həkimlərinin İngiltərəyə təlim səfərlərinin təşkil edilməsi sahəsində vacib işlər görülüb.

İngiltərə-Azərbaycan Cəmiyyəti təhsil sahəsində də bir sıra xeyriyyə işləri görüb. Kembric Universitetində azərbaycanlı tələbənin ali təhsil almasına maddi dəstək verib. Həmin gənc daha sonra Britaniyanın Xarici İşlər Nazirliyinin Çevninq təqaüdünü də qazanıb; Sürrey şəhərindəki Yəhudi Menuhin Məktəbində skripka fənni üzrə təhsil almaq üçün 1 şagirdə təqaüd ayrılıb; Londonun "Guildhall" məktəbində təhsil alan azərbaycanlı gənc pianoçunun dünya üzrə keçirilən müsabiqələrdə iştirakına dəstək verilib. Amsterdamda keçirilən son müsabiqələrin birində həmin azərbaycanlı iştirakçı birinci yer tutmağa müvəffəq olub. Cəmiyyət, həmçinin Böyük Britaniyanın məşhur və ilk ixtisaslaşmış musiqi məktəbi olan "Purcell" (www.purcell-school.org) məktəbi ilə Bülbül adına Orta İxtisas Musiqi Məktəbi arasında əməkdaşlığın qurulmasının təşəbbüskarı olub. Cəmiyyətin təşkilatçılığı ilə Bülbül adına musiqi məktəbinin iki şagirdi Britanıyanın "Purcell" musiqi məktəbində 10 gün təlim dərslərində iştirak edib. Həmçinin Cəmiyyətin dəstəyi və təşkilatçılığı ilə Britaniyanın Uels Kral Musiqi və Dram Kollecinin (www.rwcmd.ac.uk) müəllimi, Böyük britaniyalı məşhur pianoçu-pedaqoq Ceyms Korbi Bülbül adına musiqi məktəbində şagirdlər üçün fortepiano dərsləri aparıb. İngiltərə-Azərbaycan Cəmiyyətinin bu kimi onlarla digər xeyriyyə işlərini vurğulamaq olar. Tədbirdə İngiltərənin "Fe Musa" adlı yeganə qadın simli orkestrinin üzvlərindən ibarət kvartetinin ifasında musiqi əsərləri səsləndirilib. Konsert proqramında, həmçinin Azərbaycan milli instrumental musiqi ifaçıları Rafiq Rüstəmov (kamança) və Rasim Fərziyevin (tar) təqdim etdikləri nömrələr də maraqla dinlənilib.

***Orxan İsmayılov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***London***

# Heydər Əliyev: Böyük ömrün anları

**Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin cismani yoxluğundan 14 il ötür. Bu illər ərzində həyatımızda çox şey dəyişib. Azərbaycan 14 il əvvəlki Azərbaycan deyil. Onun simasına hər il yeni naxışlar vurulur: şəhər və kəndlərimiz abadlaşır, möhtəşəm binalar ucaldılır, fabrik və zavodlar tikilir, yeni yollar çəkilir, bağ və parklar salınır. Azərbaycan bu gün qlobal layihələrin təşəbbüskarı və iştirakçısıdır: Azərbaycan qazını Avropaya çatdıracaq TANAP və TAP boru kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, Şimal-Cənub nəqliyyat dəhlizi... Vaxtilə xəyal hesab olunanlar reallığa çevrilir: Azərbaycanın səsi mötəbər beynəlxalq kürsülərdən daha gur eşidilir, bayrağımız daha uca zirvələrdə dalğalanır.**



İllər çox şeyi dəyişib. Fəqət, sevgi dəyişmir: söhbət Heydər Əliyevə olan tükənməz sevgidən, xalqın öz böyük oğlunun xatirəsinə sonsuz hörmət və ehtiramından gedir. Heydər Əliyev aramızda olmasa da, ideyaları yaşayır və gələcəyə aparan yolumuzu işıqlandırır. Ulu Öndərə bəslənilən ümumxalq sevgisi ilin iki günündə - dekabrın 12-də və mayın 10-da özünü daha qabarıq büruzə verir. Heydər Əliyevin vəfat etdiyi gün və doğum günü onun uyuduğu Fəxri xiyabanda böyük izdiham yaşanır. On minlərlə insan Ulu Öndərin xatirəsini hörmət və ehtiramla yad edir.

Azərbaycanın ən yeni tarixi Heydər Əliyevin adı ilə bağlıdır. İntibah və milli şüurun oyanışı onun hakimiyyətə gəlişi ilə başlayıb. Müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter alıb. İmzalar içərisində millətimizin də imzasının görünməsi, Azərbaycanın inamla beynəlxalq arenaya çıxması, söz və nüfuz sahibi olması onun xidmətidir. Bir cümlə ilə ifadə etməli olsaq, bugünkü Azərbaycan üçün Heydər Əliyevə borcluyuq.

Daha qlobal miqyasda baxılarsa, Heydər Əliyev hələ sağlığında əfsanələşən, siyasət olimpini fəth etmiş nadir şəxsiyyətlərdən, dövlət xadimlərindən biridir. Dünyanın məşhur simalarının onun barəsində necə heyranlıqla, ehtiramla danışdıqlarının canlı şahidiyik. Heydər Əliyev siyasət aləminin patriarxı, tarixin gedişinə təsir göstərmək qüdrətinə, polad iradəyə malik yenilməz şəxsiyyət kimi səciyyələndirilir.

Naxçıvanda sadə bir ailədə dünyaya gələn bu böyük insanın siyasət olimpinə yolu təlatümlərdən, çətin sınaqlardan, aramsız mübarizələrdən keçib. Heydər Əliyev ömrü insan iradəsinin yenilməzliyinə, qalib gəlmək əzminə parlaq nümunədir. Onun keçdiyi böyük ömür yolu zaman və məkan anlayışına sığmır. Bu barədə çox yazılıb, çox deyilib. Odur ki, diqqəti Heydər Əliyevin xalqına bağışladığı ömrün ayrı-ayrı məqamlarını, tarixi anları əks etdirən fotoşəkillərə yönəltmək istərdik.

Biz Heydər Əliyevi ailə üzvləri arasında, iş başında, müxtəlif tədbirlərdə, insanlar arasında görürük. Bu tarixi fotolar bizi illər öncəyə çəkib aparır, ötən günlərə qaytarır. Baxıb təsirlənir, xatirələrə dalırıq.



## Sədaqətli ömür-gün yoldaşı, qayğıkeş ata, mehriban baba

Heydər Əliyev hələ gəncliyindən yüksək vəzifələr tutub, çiyinlərində böyük bir ölkənin yükünü daşıyıb, istirahət nə olduğunu bilməyib. Yaşlı nəslin yadında olar: onun Prezident Aparatındakı iş otağının işığı bəzən gecə yarısınadək sönmürdü. İnanılmazdır: bu qədər iş-gücün qabağında ailəsinə necə vaxt ayırırdı? Buna fotoşəkillər şahidlik edir: biz Heydər Əliyevi ailə üzvləri arasında, övladlarının, nəvələrinin əhatəsində görürük. Sanki bu tarixi fotolar dil açaraq Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı, qayğıkeş ata, mehriban baba olduğundan xəbər verir. Oğlunun və qızının gözündə o, dünyanın ən yaxşı atası, nəvələrinin gözündə dünyanın ən yaxşı babası idi. Nəvəsi Leyla "Elegiya" şeirində babasını dağa bənzədir. Əziz insanın itkisindən doğan kədəri bəlkə də heç bir şair bu qədər səmimi ifadə edə bilməzdi:

Dağ idin, çiynimi dağlara verdim,
Dağların dərdini çəksə, dağ çəkər,
Sənə məhəbbətim dağlar qədərdi,
Yerini dağlardan soruşum bəlkə?.

## Azərbaycan intibahının müəllifi və gələcəyimizin parlaq mayakı

Heydər Əliyev respublikaya rəhbər təyin olunana qədər Azərbaycan keçmiş SSRİ-nin geridə qalmış ucqarlarından biri sayılırdı. Azərbaycan KP MK-nın 1969-cu il iyul plenumunda Heydər Əliyevin birinci katib seçilməsi həyat ritmini büsbütün dəyişdi: ölkədə indiyədək görünməmiş canlanma və yüksəliş, tikinti-quruculuq işləri başlandı. Bakıda o dövr üçün nadir müəssisələr - məişət kondisionerləri, dərin dəniz özülləri zavodları, paytaxtımıza bu gün də yaraşıq verən ictimai binalar - "Gülüstan" sarayı, indiki Heydər Əliyev Sarayı tikildi, Yeni Əhmədli, Günəşli kimi nəhəng yaşayış massivləri salındı. Kənd təsərrüfatı məhsulları, xüsusən pambıq, üzüm, tərəvəz istehsalı dəfələrlə artdı. Bunun nəticəsi olaraq, əhalinin güzəranı da yaxşılaşdı.

Bu illər haqlı olaraq, Azərbaycanın intibah dövrü kimi səciyyələndirilir. O, yalnız Azərbaycanın intibah dövrünün müəllifi deyil, həm də gələcəyimizin parlaq mayakıdır.

Heydər Əliyev bu gün də davam edən ənənənin əsasını qoydu. O, bölgələrə müntəzəm səfərlər edir, insanlarla görüşür, onların problem və qayğıları ilə şəxsən maraqlanırdı. Onun alimlər, yazıçılar, mədəniyyət xadimləri ilə görüşləri də ənənə halını almışdı.

Aşağıdakı fotolar özündə həmin anları yaşadır, bizi xəyalən o illərə qaytarır.

## Siyasət kəhkəşanının sönməz ulduzu

Siyasət aləmində ulduz kimi parlayan Heydər Əliyev Siyasi Büronun üzvü seçildi. Daha sonra SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olundu. Yaşlı nəsil bu hadisələrin Azərbaycanda necə böyük sevinclə qarşılandığını yaxşı xatırlayır. Azərbaycanlının SSRİ kimi nəhəng dövlətin hakimiyyət iyerarxiyasında yüksək mövqe və vəzifə tutması qürurverici hadisə idi. Heydər Əliyevin siyasi elitanın zirvəsinə yüksəlməsi Azərbaycanın xeyrinə işləyə bilərdi: onun bir əli Vətənin üstündə olacaqdı. İnsanlar bu düşüncələrində yanılmadılar. Heydər Əliyev artan nüfuzundan və yüksək vəzifənin açdığı imkanlardan istifadə edərək, İttifaq büdcəsindən Azərbaycana daha çox vəsait ayrılmasına, bir sıra ittifaqmiqyaslı layihələrin Bakıya yönəldilməsinə nail oldu.

Moskvada olarkən gördüyü nəhəng işlər, fitri təşkilatçılıq bacarığı onun şöhrətini getdikcə artırır, sorağı SSRİ hüdudlarını aşırdı. Obyektiv siyasətçilər hesab edirdilər ki, Heydər Əliyev Baş katib vəzifəsinə ən yaxşı namizəddir.

Sonra məlum hadisələr baş verdi. Mixail Qorbaçov siyasi hakimiyyətə gəldikdən sonra Heydər Əliyevə münasibət dəyişdi,

# Heydər Əliyev: Böyük ömrün anları

ona qarşı həsəd və qısqanclıq hissləri baş qaldırdı. Ölkə rəhbərliyi ilə aralarında yaranmış ixtilaflar və ciddi fikir ayrılığı səbəbindən istefa verdi. Bununla eyni vaxtda Azərbaycanın qara günləri başladı. Onda da, indi də bir çoxları əminliklə deyirlər ki, əgər o vaxt Heydər Əliyev rəhbərlikdə olsaydı, nə Qarabağ, nə də 20 Yanvar hadisələri baş verməzdi.

Vətənin ağır günlər keçirməsinə biganə qala bilməyən Ulu Öndər 1990-cı illərin əvvəllərində Azərbaycana qayıtdı. Ölkənin siyasi rəhbərliyi onun Bakıya gəlməsinə imkan vermədiyi üçün doğulub boya-başa çatdığı Naxçıvana üz tutdu. Həmin vaxt çəkilmiş fotoşəkillərdə əhalinin onu necə coşqu və ümidlə qarşıladığı, Ulu Öndərin Naxçıvan həyatının bəzi məqamları əksini tapıb.

Heydər Əliyev ona bəslənilən ümidləri doğrultdu: muxtar respublikanı erməni təcavüzündən, siyasi təlatümlərdən qorudu. Üçrəngli bayrağımız 70 ildən sonra ilk dəfə məhz Naxçıvanda ucaldıldı. İyirmi beş il əvvəl burada dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyasının təməli qoyuldu. Onun muxtar respublikaya rəhbərliyi dövründə qəbul olunmuş taleyüklü qərarlar, atılan addımlar Azərbaycanın sonrakı taleyində həlledici rol oyandı.

Bu böyük siyasətçinin şəxsi nüfuzu sonradan müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkənin beynəlxalq arenaya inamla çıxmasını şərtləndirdi. Dünya liderləri ilə çoxsaylı görüşləri xarici siyasətin uğurlarını təmin etdi. Onu hər yerdə hörmət-izzətlə qarşılayır, sözünü eşidirdilər. Bunu həmin görüşlər zamanı çəkilmiş fotolardan da görmək mümkündür.

Heydər Əliyev əfsanələri reallığa çevirdi

Dövlət müstəqilliyinin bərpasının ilk illəri olduqca ağır keçirdi. Ölkədə baş qaldırmış xaos və anarxiya, hakimiyyət çəkişmələri, nəhayət vətəndaş müharibəsi təhlükəsi Azərbaycanı uçuruma sürükləyirdi. 1993-cü ildə siyasi və iqtisadi böhran kulminasiya nöqtəsinə çatdı. Yaranmış son dərəcə mürəkkəb və ağır vəziyyətdə xalqın gözü Naxçıvana, Heydər Əliyevə dikilmişdi. Hamı bu fikirdə idi ki, ölkəni fəlakətdən yalnız bu müdrik insan qurtara bilər.

Azərbaycan xalqı, xüsusən ziyalılar onu təkidlə Bakıya çağırır, ölkəyə rəhbərlik etməsini istəyirdi. Heydər Əliyev qayıtdı: ölkənin taleyi üçün məsuliyyəti və xilaskarlıq missiyasını üzərinə götürdü. Bu böyük şəxsiyyət Azərbaycanı çətin sınaqlardan, siyasi fırtınalardan salamat çıxararaq, sakit limana gətirə bildi. Separatizmin, dövlət çevrilişi cəhdlərinin qarşısını qətiyyətlə aldı, ölkəni parçalanmaq, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi.

Həmin vaxtlar ölkə iqtisadiyyatında dərin böhran yaşanırdı. Sənayeni, kənd təsərrüfatını dirçəltmək uzun illər tələb etdiyindən qeyri-adi həll variantları tapmaq lazım gəlirdi. Müdrik siyasətçi və dövlət xadimi olan Heydər Əliyev bilirdi ki, ölkəni düşdüyü çətin vəziyyətdən, dərin iqtisadi-sosial böhrandan yalnız neft gəlirləri ilə çıxarmaq olar. Neft isə dənizin dibində idi, onu çıxarmağa Azərbaycanın gücü çatmazdı. Ölkədə siyasi-ictimai sabitliyin hələ yetərincə möhkəm olmadığı bir vaxtda xarici şirkətlər riskə gedib Azərbaycan neftinə sərmayə qoymağa tərəddüd edirdilər. Heydər Əliyev "Amoko", "BP", "Yunokal", "LUKoyl", "Statoyl", "Ekson", "İtoçu" kimi nəhəng şirkətləri inandırmağı bacardı. Bu inamın əsasında təbii ki, ilk növbədə, Heydər Əliyev şəxsiyyətinə olan etibar dayanırdı. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın inkişafının, gələcək uğurlarının başlanğıc nöqtəsi oldu. Bu müqavilədən əldə olunan ilk neftin Ulu Öndərdə necə böyük sevinc hissi doğurduğunu yəqin ki, çoxları xatırlayır: onun gözləri gülür, əlini neftə batıraraq üzünə çəkir və bu tarixi an fotoobyektivin yaddaşına həkk olunur.

Sonra üç dəniz əfsanəsi adlandırılan Bakı-Tbilisi-Ceyhan neft kəməri, onun ardınca Bakı-Tbilisi-Ərzurum qaz kəməri çəkildi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü bu və digər taleyüklü hadisələrlə zəngin olmaqla yanaşı, həmçinin milli mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi ilə səciyyəvidir. Ulu Öndər sosial-iqtisadi siyasətdə köklü dəyişikliklərlə eyni vaxtda nizami ordu yaradılması istiqamətində də aramsız səylər göstərirdi. Onun cəbhə bölgələrinə səfərləri, ön xətdə əsgərlərlə görüşləri böyük ruh yüksəkliyi yaradır, düşmən hücumlarının qarşısının alınmasına vəsilə olurdu.





Fotoşəkillər bizi bir daha həmin tarixi günlərə qaytarır, bu dahi şəxsiyyətin titanik fəaliyyətinin ayrı-ayrı məqamlarını göz önündə canlandırır.

## Heydər Əliyev: Mən İlham Əliyevə özüm qədər inanıram

Bu dahi şəxsiyyətin xalqı qarşısında daha bir müstəsna xidməti İlham Əliyev kimi oğul yetişdirməsi, özündən sonra layiqli varis qoymasıdır. Ulu Öndər həyatının son günlərində xalqa müraciətində belə yazırdı: Mən İlham Əliyevə özüm qədər inanıram. Əminliklə bildirirdi ki, İlham Əliyev Azərbaycanı daha parlaq gələcəyə aparacaq.

Zaman Ulu Öndərin bu inamında yanılmadığını təsdiqləməkdədir. Yeni əsrin yeni lideri olan Prezident İlham Əliyev Azərbaycana bacarıqla rəhbərlik edir, öz praqmatik və müdrik siyasəti ilə ölkəmizi irəli aparır. Dövlətin sükanının etibarlı əllərdə olduğunu görən xalq öz Prezidentinə daim dəstək verir və onun arxasınca inamla gedir. Xalq-iqtidar birliyi Azərbaycanı yeni zəfərlərə doğru aparır.



## Heydər Əliyev elə bir zirvədir ki...

Uca zirvələr uzaqdan daha aydın görünür. İllər ötdükcə biz Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü və ucalığını daha dərindən dərk edirik. Xalqın öz dahi oğluna məhəbbət və ehtiramı bitib-tükənmir, əksinə, getdikcə artır. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan böyük izdiham bunun əyani göstəricisidir. İnsanlar axın-axın Ulu Öndərin abidəsi önündən keçir, ruhu qarşısında baş əyirlər. Bu anlar da fotolarda əbədiləşir. Onlara baxdıqca tam əminlik yaranır ki, xalqın Heydər Əliyevə məhəbbəti sonsuz və əbədidir...



# Heydər Əliyev şəxsiyyətinin xalqımızın həyatında, müstəqil dövlətçilik tariximizdə misilsiz yeri və rolu vardır

*Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanovun yap.org.az-a müsahibəsi*

***- Əhliman müəllim, 12 dekabr Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anım günüdür. Müstəqil Azərbaycan dövlətinin qurucusu olan Ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında xidmətləri misilsizdir. Ümummilli liderin zəngin və çoxşaxəli fəaliyyəti ilə bağlı fikirlərinizi bizimlə bölüşməyinizi istərdik...***

- Müasir müstəqil Azərbaycan dövlətinin hazırki inkişaf mərhələsinə çatmasında bir çox amillər müstəsna rol oynamışdır. Bu sırada şəxsiyyət-lider amili mühüm yer tutur. Şübhəsiz ki, Azərbaycan xalqı və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən dahi şəxsiyyət, Ümummilli lider Heydər Əliyev olmuşdur. Həm keçmiş SSRİ, həm də müstəqillik dövründə Ümummilli lider Heydər Əliyevin çoxşaxəli fəaliyyəti yalnız Azərbaycan xalqının tərəqqisi və inkişafına xidmət etmişdir. Azərbaycan məhz Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə inkişaf edərək tərəqqi yoluna çıxıb, bütün sahələrdə mühüm uğurlar, parlaq nəticələr əldə edilib.

Heydər Əliyev şəxsiyyətinin xalqımızın həyatında, müstəqil dövlətçilik tariximizdə misilsiz yeri və rolu haqqında bəhs edərkən Ümummilli liderin siyasi fəaliyyətinin müxtəlif dövrlərinə nəzər salmaq lazımdır. Əvvəla qeyd etmək lazımdır ki, Ümummilli liderin hakimiyyətinin birinci dövrünü əhatə edən 1969-1982-ci illər ərzində görülən işlər, həyata keçirilən tədbirlər nəticəsində əldə edilən çoxsaylı nailiyyətlər respublikamız üçün tarixi əhəmiyyətə malikdir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyevin Mərkəzi Komitənin birinci katibi seçilərək respublikanın rəhbəri olmasından sonra bütün sahələrdə həyata keçirilən islahatlar respublikamızın inkişafını təmin edib. Eyni zamanda, müstəqillik dövründə Ulu öndər Heydər Əliyevin çoxşaxəli və yorulmaz fəaliyyəti, misilsiz xidmətləri sayəsində Azərbaycanın inkişafı təmin olundu, müasir və qüdrətli Azərbaycan inşa edildi. Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə xalqın israrlı tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra sabitlik və təhlükəsizlik təmin edildi, bütün sahələrdə böhran və tənəzzülün qarşısı alındı, ölkə tərəqqi yoluna qədəm qoydu. Bugünkü müasir, müstəqil Azərbaycan məhz Ulu öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir.



***- Yeri gəlmişkən, Ümummilli liderin hakimiyyətinin birinci dövrünü əhatə edən 1969-1982-ci illər ərzində səhiyyə sahəsində görülən işlər, həyata keçirilən tədbirlər nəticəsində əldə edilən nəticələrlə bağlı nə deyə bilərsiniz?***

- Həmin dövrdə Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və ardıcıl tədbirlər sayəsində elm, təhsil və səhiyyə sektorlarında çox mühüm inkişaf göstəriciləri qeydə alınıb. Ulu öndər səhiyyə sahəsini, tibb elmi və tibb təhsili sistemini də daim diqqət mərkəzində saxlayırdı. O, ilk növbədə, tibb üzrə xarici mütəxəssislərin diqqətini Azərbaycana cəlb etməyə, onlarla yerli mütəxəssislər arasında əlaqə yaratmağa çalışırdı. Ötən əsrin 70-ci illərinin əvvəllərindən etibarən tibb üzrə beynəlxalq qurultay, simpozium, konqres və konfransların Bakıda keçirilməsini təşkil edən Ümummilli lider Heydər Əliyev ölkəmizin səhiyyə sahəsinin, o cümlədən tibb elmi və tibb təhsili sahələrinin beynəlxalq müstəviyə çıxması istiqamətində məqsədyönlü işlər görürdü. Həmin dövrdə azərbaycanlı gənc alimlərin keçmiş ittifaq səviyyəsində doktoranturaya qəbul edilməsinə də nail olunmuşdu ki, bu da kadr potensialının formalaşdırılması və inkişafı baxımından böyük əhəmiyyətə malik idi. Müxtəlif ixtisaslar üzrə kadrlar Moskvanın, Sankt Peterburqun, Kiyevin, Minskin, Xarkovun və SSRİ miqyasında fəaliyyət göstərən digər iri şəhərlərin ali tibb müəssisələrində təhsil almalarına, ixtisasartırma kurslarına getmələrinə, aspirantura və doktorantura xətti ilə namizədlik və doktorluq dissertasiyaları müdafiə edərək elmi dərəcələrə yiyələnmələrinə geniş imkanlar yaratdı. Həmin kadrlar mütəxəssis kimi respublikamıza qayıdıb fəaliyyətlərini davam etdirirdilər. Bu tədbirlər ardıcıl olaraq həyata keçirilir, respublikamızda uzaqgörənliklə müxtəlif profilli gənc tibbi kadrlar hazırlanır, səhiyyənin elmi və pedaqoji potensialı gücləndirilirdi. Bununla yanaşı, mövcud ali təhsil müəssisələrinin imkanları genişləndirilir, maddi-texniki bazası yaxşılaşdırılır, yeni səhiyyə ocaqları yaradılırdı. Ümummilli liderin rəhbərliyi altında qısa müddətdə ölkəmizdə yeni uşaq bağçalarının, xəstəxana və poliklinikaların tikintisi geniş vüsət almış, XX əsrin 70-ci illərinin ilk beş ili ərzində 35 belə obyekt tikilib xəstələrin istifadəsinə, tibb personalının ixtiyarına verilmişdi. Tikilib istifadəyə verilmiş yeni klinikalar, tibb mərkəzləri müasir tibb avadanlığı ilə təchiz olunaraq əhaliyə yüksək səviyyədə müvafiq tibbi xidmət göstərməyə başlamışdı.

1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Ümummilli lider Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilməsindən sonra da bəhs olunan sahələrin inkişafı istiqamətində məqsədyönlü və ardıcıl işlər davam etdirildi, mühüm inkişaf göstəriciləri qeydə alındı.

***- Müstəqillik illərində Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə görülmüş işlər sayəsində elm və səhiyyə sahələrində qazanılan nailiyyətləri necə dəyərləndirirsiniz?***

- Əlbəttə ki, elm və səhiyyə sahəsinin inkişafı baxımından yüksək nəticələr əldə olunub. Azərbaycan səhiyyəsi qarşısında yeni perspektivlərin açılması ilə bu sahədə mühüm islahatlar həyata keçirildi, istər kadr hazırlığı, istər infrasruktur quruculuğu istiqamətində mühüm nailiyyətlər əldə olundu, yeni səhiyyə müəssisələri istifadəyə verildi. Eyni zamanda, səhiyyə sahəsində ölkənin tədris müəssisələrinin, o cümlədən Azərbaycan Tibb Universitetinin normal fəaliyyəti üçün əlverişli şərait yarandı. 1996-cı ildə Azərbaycan Tibb Universiteti Amerika və Avropa Təhsil Birliyinin beynəlxalq reyestrinə daxil edildi və bundan sonra ölkəmizin dövlət xətti üzrə yeganə ali tibb təhsili ilə məşğul olan tədris ocağının beynəlxalq əlaqələri daha da genişləndirildi, xarici ölkələrin ali tibb müəssisələri ilə tələbə mübadiləsi aparılması, alimlərimizin xarici əlaqələrinin genişləndirilməsi lazımi səviyyəyə çatdırıldı. Tibb alimlərinə, həkimlərə, bütün səhiyyə işçilərinə xüsusi qayğı ilə yanaşan Ulu öndər Heydər Əliyev 1998-ci və 2000-ci illərdə Azərbaycan Tibb Universitetində olmuş, Öz dəyərli tövsiyələrini vermişdir. 1998-ci il 28 sentyabr tarixində ATU-da yeni tədris binasının açılışında olan Ümummilli lider Heydər Əliyev 2000-ci ildə yenidən Azərbaycan Tibb Universitetinə gələrkən burada 500 yerlik akt zalının açılışında, eləcə də bu ali təhsil müəssisəsinin 70 illik yubileyinə həsr edilmiş təntənəli mərasimdə iştirak edib. Tibb Universitetinə göstərilən yüksək diqqət və qayğının nəticəsi kimi, ATU Qaradəniz hövzəsi ətrafı ölkələrin Ali Məktəblər Birliyinin, Beynəlxalq Ali Məktəblər Assosiasiyasının, Avropa Universitetlər Assosiasiyasının tamhüquqlu üzvü seçildi. 2002-ci ildə Azərbaycan Tibb Universiteti nəzdində onun tarixində ilk klinika olan Stomatoloji Klinika təşkil edildi və bununla da ATU-nun öz klinikalarının yaradılmasının əsası qoyulmuş oldu.

Bütövlükdə, müstəqillik dövründə Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar səhiyyə sahəsində inkişafın əsasını qoydu, maddi-texniki bazanın yaxşılaşdırılması və kadr potensialının gücləndirilməsi istiqamətində görülən işlər yeni perspektivlər müəyyənləşdirdi.

***- Bu gün müstəqil Azərbaycan Ulu öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Ümummilli liderin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələbləri və çağırışlarına müvafiq surətdə uğurla davam etdirilir, bütün sahələrdə parlaq inkişaf göstəriciləri qeydə alınır. Hazırda Azərbaycanda səhiyyə sahəsinin inkişafı istiqamətində görülən işlər və həyata keçirilən islahatların əhəmiyyəti ilə bağlı nə deyə bilərsiniz?***

- Ümummilli liderimiz Heydər Əliyevin siyasəti Onun layiqli davamçısı, siyasi varisi cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan müasir, qüdrətli və dinamik inkişafa malik olan ölkə kimi tanınır. Bütün sahələrdə ardıcıl və sistemli islahatlar həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində bütün istiqamətlərdə, o cümlədən elm, təhsil, səhiyyə sahələrində davamlı inkişaf müşahidə edilir. Xüsusilə də, səhiyyə sahəsində uğurlu addımlar atılıb, bu sahənin inkişafı üçün bütün imkanlar yaradılıb. Tibb elmi və tibb təhsili sistemimizi əhatə edən çoxşaxəli fəaliyyət və əldə olunan uğurlar məhz Ulu öndərin ideyalarının reallığa çevrilməsinin məntiqi nəticəsidir.

Son illər ölkədə yüzlərlə tibb ocağının tikilib istifadəyə verilməsi səhiyyə sahəsində həyata keçirilən uğurlu siyasətin, bu sahəyə yüksək diqqət və qayğının bariz nümunəsidir. Bu tibb müəssisələri müasir avadanlıqlarla təhciz olunur. Bizim klinikaları görən xarici qonaqlar şəraitimizin Avropa klinikalarından heç də geri qalmadığını dəfələrlə vurğulayıblar. Təbii ki, belə bir şəraitdə yüksək kadrların da hazırlanması aktual məsələdir. Sevindiricidir ki, bu baxımdan Tibb Universiteti yüksək nəticələr əldə edir. Qeyd edim ki, 2006-cı ildə Prezident İlham Əliyevin göstərişi ilə ATU-nun Onkoloji Klinikasının təşkilinə başlanıldı və bu proses 2007-ci ilin iyun ayında başa çatdırıldı. Dövlətimizin başçısı 2007-ci il sentyabr ayının 11-də ATU-nun terapevtik klinikasının yaradılması və tikintisinə başlanılması haqqında Sərəncam imzaladı, 2007-ci il sentyabr ayının 18-də isə tikintinin təməlqoyma mərasimi keçirildi. 2010-cu il oktyabrın 1-də Azərbaycan Tibb Universitetinin yaradılmasının 80 illik yubileyi ərəfəsində cənab Prezidentin və xanımı Mehriban Əliyevanın iştirakı ilə ATU-nun Tədris-Terapevtik Klinikasının açılış mərasimi keçirildi. Eyni zamanda, Prezidentin 2008-ci il mart ayının 13-də imzaladığı Sərəncama əsasən ATU-nun Tədris-Cərrahiyyə Klinikasının yaradılmasına və tikintisinə başlanıldı, 2013-cü il sentyabrın 12-də bu klinika istifadəyə verildi.

Bütövlükdə, Azərbaycanda əhalinin sağlamlığının qorunması, tibbi xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılması həyata keçirilən sosial-iqtisadi siyasətin başlıca istiqamətlərindən biri kimi daim dövlətin diqqət mərkəzindədir. İqtisadiyyatın dinamik inkişafı səhiyyə sahəsinə də öz təsirini göstərib və bu sahədə aparılan islahatlar nəticəsində əhalinin sağlamlığının qorunması istiqamətində mühüm işlər görülüb. Bununla yanaşı, ölkəmizdə elmin inkişafı, elmi araşdırmaların aparılması üçün hər cür şərait yaradılıb. Bu sahəyə Prezident İlham Əliyev tərəfindən böyük diqqət və qayğı göstərilir. Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinə həsr olunmuş tədbirdə Prezident İlham Əliyev çıxış edərək elmin inkişafı ilə əlaqədar dəyərli tövsiyələrini verdi. Bu gün dövlət tərəfindən göstərilən qayğı nəticəsində elm sahəsi inkişaf edir. Bu inkişaf elmin bütün sahələrində özünü göstərir. Bu baxımdan, tibb elmində də ciddi nailiyyətlər əldə olunur.

Nəticə etibarilə, Ümummilli liderin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən müasir çağırışlara uyğun şəkildə uğurla davam və inkişaf etdirilir. Bunun nəticəsidir ki, bütün istiqamətlərdə əldə edilən inkişaf göstəriciləri elm və səhiyyə sahəsini də əhatə edir.

## Xəzər rayonunda Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi anıldı

*Namiq Əhmədov: "Onun həyatının hər bir anı, bilavasitə Azərbaycanla, xalqı ilə bağlı olub"*



Yeni Azərbaycan Partiyası Xəzər rayon təşkilatında Ulu Öndər Heydər Əliyevin Anım günü ilə bağlı tədbir keçirilib. Tədbirdə YAP Xəzər rayon təşkilatının sədri, Siyasi Şuranın üzvü Namiq Əhmədov, millət vəkili Rauf Əliyev, Xəzər RİH başçısının birinci müavini Vaqif Həsənov, rayon ziyalıları, qadınlar şurası və gənclər birliyinin üzvləri iştirak ediblər.

Tədbirdə çıxış edən YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov qeyd edib ki, Ulu Öndər Heydər Əliyev, nəinki Azərbaycan xalqına, eləcə də, bütün dünyanın siyasət arealına nə qədər dahi şəxsiyyət və böyük siyasi xadim olduğunu sübuta yetirmiş fenomendir. "Onun həyatının hər bir anı, bilavasitə Azərbaycanla, xalqı ilə bağlı olub"-deyə qeyd edən N.Əhmədov müstəqilliyimizin qorunub saxlanılmasında, ölkəmizin inkişaf və tərəqqi təməlində məhz Onun tarixi imzasının olduğunu vurğulayıb: "Bu gün Ümummilli Lider Heydər Əliyev siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və hər bir vətənsevər azərbaycanlı Ulu Öndərimiz tərəfindən müəyyənləşdirilmiş bu siyasəti dəstəkləyir və bundan sonra da dəstəkləməkdə davam edəcək".

Digər çıxış edənlər - YAP Xəzər rayon təşkilatının sədr müavini Zeynəb Əliyeva, Xəzər rayon ziyalılarının sədri Təvəkkül Səlimov və təhsil işçilərinin azad həmkarlar ittifaqının Xəzər rayon komitəsinin sədri Həzərxan Əbilov da Ulu Öndər Heydər Əliyev ideologiyasının əbədiliyi və dönməzliyi ətrafında çıxış edərək, bu ideologiyaya sadiq qalacaqlarını vurğuladılar.

**Rövşən RƏSULOV**

## Yasamal rayonunda Ümummilli Lider Heydər Əliyevin xatirəsi anıldı



Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının Ümummilli Lider Heydər Əliyevin Anım Gününə həsr olunmuş tədbiri keçirildi. Tədbirdə, ilk olaraq, Ulu Öndər Heydər Əliyevin ruhuna dualar oxundu. Sonra Ulu Öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Tədbiri giriş sözü ilə YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov açaraq, bildirdi ki, hər il 12 dekabr xalqımızın Ümummilli Lideri, çoxəsrlik Azərbaycan tarixində misilsiz xidmətləri ilə əbədiyaşar mövqe qazanmış Ulu Öndər Heydər Əliyevin Anım Günü qeyd edilir. O, ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə yaranmış ictimai-siyasi vəziyyətə nəzər salaraq, belə bir şəraitdə Azərbaycan xalqının birləşərək, ölkəni bürümüş acınacaqlı vəziyyətə qarşı məntiqli, iradəli gücünü ortaya qoyaraq, təkid və tələblə Ümummilli Liderin hakimiyyətə qayıdışını irəli sürdüyünü diqqətə çatdırdı: "Ulu Öndər Heydər Əliyev şərəfli və mənalı ömrünü xalqımızın xoşbəxt gələcəyinə həsr etmiş, hələ keçmiş SSRİ dövründə müxtəlif yüksək vəzifələrdə çalışdığı zamanlarda da respublikamızın bütün sahələrdə inkişafının əsasını qoymuşdur. Ulu Öndər Heydər Əliyevin olduqca zəngin, şərəfli və mənalı həyatı, Onun titanik fəaliyyəti haqqında nə qədər danışılsa da, bu tarixi Şəxsiyyətin zəngin irsi tükənməzdir".



Tədbirdə çıxış edən AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli Dahi Şəxsiyyət Heydər Əliyevin dövlətin milli maraqlarının qorunmasında, suverenliyinin möhkəmləndirilməsində, inkişaf etdirilməsində və cəmiyyətdəki demokratikliyinin bərqərar olmasında müstəsna rolu olduğunu bildirdi. Dahi Öndər Heydər Əliyevin ideyalarının Azərbaycan dövləti durduqca həmişəyaşar olacağına əminliyini ifadə etdi: "Bu gün Onun siyasi kursunu ölkə Prezidenti Cənab İlham Əliyev uğurla davam etdirir. Prezident İlham Əliyev məqsədyönlü fəaliyyəti ilə, nəinki Azərbaycanın, ümumiyyətlə, regionun siyasi lideri olduğunu ortaya qoymuşdur". Sonra Ulu Öndər Heydər Əliyevə həsr olunmuş film nümayiş olundu.

Xalq artisti Məleykə Əsədova Ulu Öndər Heydər Əliyevə həsr olunmuş şeirlər ifa etdi.

Tədbirdə Yasamal rayon icra hakimiyyəti başçısının birinci müavini Səməd İslamov, YAP Yasamal rayon təşkilatı idarə heyətini üzvü, BDU-nun professoru İsmayıl Əliyev, YAP Siyasi Şurasının üzvü Xeyrəddin Qoca çıxış edərək, Ümummilli Lider Heydər Əliyevin müstəsna tarixi xidmətlərindən və böyük xilaskarlıq rolundan danışıb. Bildirilib ki, Dahi Şəxsiyyət parlaq siyasi zəkası və istedadı sayəsində müstəqil və qüdrətli Azərbaycan dövlətini yaradıb, onun davamlı inkişaf yollarını müəyyənləşdirib. Bu gün müstəqil Azərbaycanın inkişafının hər bir zərrəsində Dahi Öndərin ideyaları yaşayır.

Sonda Ulu Öndərin Anım Günü ilə əlaqədar ehsan süfrəsi verildi.

**Nəzakət ƏLƏDDİNQIZI**

## Müstəqil Azərbaycanın sərhəd mühafizəsinin inkişafında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri var



Müstəqil Azərbaycanın sərhəd mühafizəsinin inkişafında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri var. Bu fikir Dövlət Sərhəd Xidmətinin (DSX) Aparatında müasir müstəqil Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar keçirilən tədbirdə səslənib. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev Elmi Araşdırmalar Mərkəzində Ulu Öndərin nəsillərə nümunə olan həyat və fəaliyyətini əks etdirən çoxsaylı fotolara baxıblar. Ümummilli Liderin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanan tədbirdə çıxış edən Dövlət Sərhəd Xidməti rəisinin müavini, general-leytenant Azad Ələkbərov və Milli Məclisin deputatı Aydın Mirzəzadə ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən söz açıb, tarixə öz adını əbədi həkk etmiş nadir şəxsiyyətin, hər bir Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrilmiş, Vətəninə hədsiz məhəbbət, xalqının tarixinə, mədəniyyətinə, milli mənəvi dəyərlərinə böyük sevgi nümunəsi olan qüdrətli siyasi xadimin həyat və fəaliyyətindən danışıblar.



Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi illərin intibah, milli tərəqqi, müstəqil dövlət quruculuğu dövrü olduğu qeyd edilən tədbirdə böyük dövlət xadiminin müstəqil Azərbaycanın sərhəd mühafizəsinin inkişafındakı misilsiz xidmətləri minnətdarlıq hissi ilə xatırlanıb. Ulu Öndərin müəllifi olduğu milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında müvəffəqiyyətlə yerinə yetirilməsi, ardıcıl həyata keçirilən islahatlar sayəsində Dövlət Sərhəd Xidmətinin sürətlə inkişaf edərək ölkəmizin sərhədlərini ən yüksək standartlar səviyyəsində mühafizə etməyə qadir olan bir quruma çevrilməsi qürur hissi ilə vurğulanıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə əldə edilən uğurların ulu öndər Heydər Əliyevin zəkasının təcəssümü, onun əmanət qoyub getdiyi ideyaların təntənəsi olduğu qeyd edilib.Tədbirin sonunda Ulu Öndərin həyatından bəhs edən sənədli film nümayiş etdirilib.

## Dahi rəhbər Heydər Əliyevin ideyaları əbədi yaşayacaq





Dekabrın 11-də Nəsimi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Azərbaycan Dövlət Musiqili Teatrında ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Nəsimi Rayon İcra Hakimiyyətinin nümayəndələri, Milli Məclisin deputatları, Türkiyədən dəvət olunmuş Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) sədri, Avropa Azərbaycanlıları Konqresinin vitse-prezidenti Bilal Dündarın rəhbərlik etdiyi nümayəndə heyəti, İzmit bələdiyyəsinin nümayəndələri, rayon ərazisində fəaliyyət göstərən idarə və təşkilatların, ali və orta təhsil müəssisələrinin kollektivləri, ictimaiyyətin nümayəndələri, elm və mədəniyyət xadimləri iştirak ediblər.Tədbir iştirakçıları Ümummilli Liderin siyasi fəaliyyətini əks etdirən videoçarxa baxıblar.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov çıxış edərək müasir müstəqil Azərbaycanın qurucusu və memarı Heydər Əliyevin çoxşaxəli siyasi fəaliyyətindən danışıb. Vurğulanıb ki, Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində özünün müstəsna əhəmiyyəti, sanbalı, xalqımızın nəinki bu günü, həm də gələcək taleyinin müəyyənləşdirilməsi baxımından Heydər Əliyev epoxası bənzərsizdir. Bu epoxanın hər bir mərhələsi müasir tariximizin bütöv bir salnaməsini təşkil edir ki, onun hər səhifəsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. XX əsr Azərbaycan tarixinin ən parlaq siması Heydər Əliyevin siyasi obrazını təhlil edən natiq deyib ki, o, xalqımızın dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin, bir sözlə, müasir ictimai-siyasi fikrin davamlı keyfiyyətlərinin canlı mənzərəsidir. Diqqətə çatdırılıb ki, ulu öndər Heydər Əliyevin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Cəmiyyətimizdə hökm sürən xaos və anarxiya, iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliklər onun siyasi təcrübəsi nəticəsində aradan qaldırıldı. Ulu Öndərin Vətənimizin ərazi bütövlüyünün qorunub saxlanılması, ölkənin parçalanma təhlükəsinin aradan qaldırılması yönündə gördüyü işlərə toxunan icra başçısı bildirib ki, Heydər Əliyevin müstəqilliyimizin gerçək mənada möhkəmləndirilməsi yolundakı xidmətləri danılmazdır. Qeyd olunub ki, Heydər Əliyev siyasi kursu daim inkişaf etdirilir və müstəqilliyimizin daha da möhkəmlənməsinə təkan verir. Azərbaycanın bugünkü inkişaf səviyyəsinə gətirilib çıxarılmasında Ulu Öndərin böyük xidmətləri xüsusi qeyd edilməlidir. Prezident İlham Əliyev Ümummilli Liderin siyasi kursunu layiqli şəkildə davam etdirərək praqmatik daxili və xarici siyasəti ilə ölkəmizi uğurlu gələcəyə aparır. Bu siyasətin uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan iqtisadiyyatının inkişaf etməsi, Azərbaycan dövlətinin dünya dövlətləri arasında xüsusən seçilməsi hər birimizdə qürur hissi yaşadır. Azərbaycan xalqı və onun yaratdığı dövlət durduqca dahi rəhbər Heydər Əliyevin ideyaları da yaşayacaq. Tədbir bədii hissə ilə davam edib.

# Ulu Öndər Heydər Əliyevin ideyaları Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin əsasıdır

*"Nə qədər Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!"*

***Müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin bu fikrini şərtləndirən amillərin işığında ölkəmizin keçdiyi inkişaf yoluna qısaca nəzər salaq. Bircə bu reallığı qeyd etmək kifayətdir ki, məhz keçilən yolun, uğurlarımızın zənginliyinin, ən əsası, möhkəm təməlin nəticəsidir ki, Möhtərəm Prezidentimiz İlham Əliyev bu tezisi səsləndirmişdir: "Heydər Əliyevin əsəri olan müasir Azərbaycan dövləti daha da qüdrətli, zəngin olacaq və hərtərəfli inkişafa nail olacaqdır." Bu inam hələ Cənab İlham Əliyev ilk dəfə, yəni 2003-cü ildə prezident seçiləndə ifadə olunmuşdur. Həmin vaxtdan bizi 14 illik zaman ayırır. Bu gün isə dövlətimizin başçısı İlham Əliyev qətiyyətlə bildirir ki, Azərbaycan hazırda Ulu Öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır.***



*Vüqar Rəhimzadə,*
*YAP Siyasi Şurasının üzvü,*
*"İki sahil" qəzetinin baş redaktoru,*
*Əməkdar jurnalist*

## Ulu Ondər Heydər Əliyevin təkcə Sovet hakimiyyəti illərindəki fəaliyyəti böyük dövlət idarəçiliyi akademiyasıdır

Bu gün iqtisadi möcüzələr ölkəsi, islahatçı və xoşbəxt respublika kimi tanınan Azərbaycanın mövcud potensial imkanları, məhz Ümummilli Lider Heydər Əliyevin hakimiyyətinin birinci dövründə yaradılmışdır. Ən əsası azərbaycançılıq məfkurəsi xalqımızın şüurunda əsas yer tutdu, zaman-zaman bu ideyanın ətrafında sıx birləşmək əsas məqsədə və amala çevrildi. Məhz o illərdə milli azadlığın və özünüdərkin təbliği istiqamətində atılan addımlar, yaradılan şərait növbəti illərdə öz bəhrəsini verdi. Ulu Öndər Heydər Əliyevin bu fikrini bir daha xatırlatmaq yerinə düşər: "Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar." Azərbaycanı gələcəkdə müstəqil dövlət kimi görmək istəyini hələ hakimiyyətinin birinci dövründə atdığı biri-birindən önəmli addımları ilə təsdiqləyən Ulu Öndər Heydər Əliyev 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycan ilk illərdə böyük çətinliklərlə, faciələrlə üz-üzə qalanda, müstəqilliyimizi xalqımızın tarixi nailiyyəti kimi dəyərləndirərək, onun qorunmasını hər kəsin vətəndaşlıq borcu kimi irəli sürdü. Zaman hadisələrə düzgün dəyər vermək üçün ən böyük yaddaşdır. Ulu Öndər Heydər Əliyev hakimiyyətinin ikinci dövründə 1969-1982-ci illərdə görülən işləri belə xarakterizə etmişdir: "O dövrlərdə yaranmış iqtisadi potensial da bizim böyük sərvətimizdir. Bu sərvət də Azərbaycanın tam sərbəst, heç bir dövlətdən asılı olmayaraq, yaşamasına imkan verir. Güman edirəm ki, biz müstəqilliyimizi tam bərqərar etdikdən və qarşıda duran vəzifələri həyata keçirdikdən sonra ölkəmizin bu iqtisadi potensialının bəhrələrini Azərbacanın hər bir vətəndaşı görəcək və bunun sayəsində şən, firavan yaşayacaqdır." 1993-cü ildən sonra yaşananlar, Azərbaycanın imza atdığı davamlı uğurlar Ümummilli Liderin bu fikirlərinin reallığa söykəndiyini bir daha ortaya qoydu. Bu gerçəklik də hər zaman xatırlanır ki, keçmişindən bəhrələnən, bu günü ilə fəxr edən, gələcəyə yeni-yeni hədəflərlə addımlayan dövlətlər, xalqlar daim "tarixin dərsi" kimi qəbul olunan sərt və çətin sınaqlardan şərəflə çıxır, bundan qürur duyur, varlığını təsdiqləyir, beynəlxalq birliyin fəal üzvü kimi cərəyan edən proseslərə təsir imkanlarına malik olur.

Azərbaycan dövləti və xalqı bu ilkə də imza atdı. Ümummilli Lider Heydər Əliyev bildirirdi: "Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır, tarixi təhrif etmək də olmaz, tariximizdəki qara ləkələri, qara səhifələri unutmaq da olmaz." Xalqımızın dövlətçilik tarixində mürəkkəb mərhələlərin olduğu hər kəsə məlumdur. Bütün təzyiqlərə, çətinliklərə baxmayaraq heç bir qüvvə xalqımızın dövlətçilik arzularını, ənənələrini məhv edə bilməmişdir. Ulu Öndər Heydər Əliyevin istər hakimiyyətinin birinci, istərsə də ikinci dövründə xidmətlərinin miqyası Onun daim qürurla qeyd etdiyi bu fikirləri xatırlatmaq məcburiyyətində qoyur: "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışıram və çalışacağam." Dahi şəxsiyyət düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı görmək istədiyi ən yüksək səviyyəyə yüksəltmək üçün möhkəm təməli formalaşdırdı. Ulu Öndər hakimiyyətinin birinci dövründə ölkəmizi geridə qalmış respublikadan çiçəklənən bir diyara çevirdi. Belə ki, 1969-1982-ci illərdə ən böyük sənaye obyektlərinin tikilib istifadəyə verilməsi, sosial infrastrukturun formalaşdırılması, yüksək səviyyədə elmi tədqiqatların aparılması, kadr hazırlığı, gənclərin respublikanın elmi-texniki və mədəni potensialını yüksəltmək üçün son dərəcə vacib olan ixtisaslara yiyələnməsi məqsədilə keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi və digər istiqamətlərdə əldə olunan biri-birindən əhəmiyyətli uğurlar Ümummilli Lider Heydər Əliyevin əzmkar fəaliyyətinin nəticəsidir. Sirr deyil ki, Ulu Öndər 1969-cu ildə birinci dəfə Azərbaycana rəhbərlik edən zaman ölkəmiz müttəfiq Sovet respublikaları arasında ən geridə qalanlar sırasında idi. İqtisadiyyat, demək olar ki, inkişaf etmirdi, kənd təsərrüfatının inkişafı üçün lazımi tədbirlər görülmürdü, sənaye istehsalı çox aşağı səviyyədə idi. Məhz dahi şəxsiyyətin fəaliyyəti nəticəsində, 13 ildə Azərbaycan keçmiş İttifaq miqyasında ən qabaqcıl yerlərə çıxmışdır. Əgər o vaxt iki respublika özünü təmin edə bilirdisə, onlardan biri Azərbaycan idi. Azərbaycanın keçdiyi yolu Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyev belə şərh edir: "1969-cu ilə qədər Azərbaycan haqqında heç Sovet məkanında o qədər də çox məlumat yox idi. 1970-80-ci illərin əvvəlləri Azərbaycanın intibah dövrü olmuşdur. Azərbaycan sürətlə inkişaf etdi və Sovet məkanında qabaqcıl respublikalardan birinə çevrildi. Ondan sonra, 1983-1993-cü illərdə, Heydər Əliyevin Azərbaycanda olmadığı dövrdə yavaş-yavaş Azərbaycan yenə tənəzzülə uğradı və bu tənəzzül, əslində, təzəcə əldə edilmiş müstəqilliyin itirilməsi ilə nəticələnirdi. Biz deyəndə ki, Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur, tam həqiqəti deyirik. Çünki formal olaraq müstəqillik 1991-ci ildə əldə edilsə də, bu müstəqillik yarımçıq idi. Azərbaycanın gələcəyi sual altında idi. Azərbaycan müstəqil ölkə kimi yaşaya bilmirdi, müxtəlif təzyiqlərə məruz qalırdı və bu təzyiqə davam gətirə bilmirdi. Ölkəmizin müstəqilliyi əldən gedirdi. Azərbaycanın dövlət quruculuğu, məhz 1993-cü ildən başlanmışdır. Heydər Əliyev Azərbaycana siyasi rəhbərliyə qayıtdıqdan sonra başlanmışdır və on il ərzində Azərbaycan yenə də postsovet məkanında ən geridə qalmış, ən problemli ölkədən ən qabaqcıl ölkəyə çevrilmişdir. Bu gün bu, tam həqiqətdir və bu gün Heydər Əliyev siyasəti davam edir." Bir sözlə, həmin illərdə iqtisadi sahədə əldə olunan uğurlar siyasi müstəqillik yolunda mühüm təməl kimi dəyərləndirilməlidir.

## 1993-cü ilin 15 İyun-müstəqilliyi əbədiləşdirən uğurlu bir yolun başlanğıcı

Müstəqillik tarixində 26 illik yol qət edən Azərbaycanın bu günündən dünəninə diqqət yetirəndə Ümummilli Lider Heydər Əliyevin xidmətlərinin miqyası, bu günümüz və gələcəyimiz üçün hazırlanmış inkişaf strategiyasının əsl mahiyyəti daha aydın görünür. Ulu Öndər Heydər Əliyevin "Biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respbulikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir" fikirləri də Azərbaycanın sabahına olan inamdan irəli gəlmişdir. Hər bir ölkəni inkişafa aparan, imzalar arasında imzasının görünməsini şərtləndirən əsas amil, məhz dövlət rəhbərinin idarəçilik sistemi, dövlət maraqlarını hər şeydən öndə tutması, xalqına və ölkəsinə bağlılığıdır. Azərbaycan Ulu Öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövründə dahi Liderin gücünün, qətiyyətinin və siyasi iradəsinin şahidi oldu. "Açıq qapı" siyasəti yürütməklə Azərbaycanın qapısının bura xoş niyyətlə ayaq basan hər kəsə açıq olduğunu bəyan edən Ümummilli Lider Heydər Əliyev digər tərəfdən dövlətimizin müstəqil siyasətini önə çəkərək, heç bir qüvvənin Azərbaycan xalqının iradəsinə təsir etmək imkanında olmadığını, göstərilən hər bir cəhdin qarşısının xalq-iqtidar birliyinin fonunda qətiyyətlə alınacağını da diqqətə çatdırırdı. Məhz Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Ulu Öndərin qətiyyəti sayəsində alındı, dövlət müstəqilliyimiz qorundu və möhkəmləndirildi. Hər zaman qeyd olunduğu kimi, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qorumaq ondan da çətindir. Tarixi paralellər fonunda Azərbaycanın müstəqillik yolunun heç də hamar olmadığının şahidi oluruq. Müstəqilliyimizin ilk illərində Azərbaycan həmin dövrün iqtidarının səriştəsizliyi, idarəçilik qabiliyyətinin yoxluğu, öz şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutmasının ucbatından öz dövlət müstəqilliyini itirmək, dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalanda, xalqımız üzünü öz xilaskarı-na-Ulu Öndər Heydər Əliyevə tutdu. Həmin dövrdə Ümummilli Lider Naxçıvan MR Ali Məclisinin Sədri idi. Bu reallığı da qeyd edək ki, Naxçıvan MR Ali Məclisinin Sədri kimi onun həyata keçirdiyi islahatlar haqqında geniş danışmağa ehtiyac olmasa da, o illərdə baş verən hadisələrin xronikasına nəzər salmaqla, müdrik insanın xidmətləri barədə aydın təsəvvür yaratmaq mümkündür. 1990-cı il yanvar hadisələri törədiləndə, Moskvadakı Azərbaycan Nümayəndəliyinə gedərək, qırğını müstəqil bir dövlətin süverenliyinə qarşı törədilmiş siyasi aksiya hesab edən Ulu Öndər Heydər Əliyev Naxçıvanda işləyərkən faciəyə siyasi qiymət verilməsini, günahkarların cəzalandırılmasını qəti tələb etdi. Saxta ideyalar əsasında formalaşan və xalqları 70 ildən artıq əsarətdə saxlayan Kommunist Partiyasına etiraz edərək, bu qurumun üzvlüyündən imtina etdi. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı o vaxt Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın dövlət bayrağı elan edildi. 1991-ci ilin əvvəllərində Sovet İttifaqının saxlanılmasına dair Azərbaycanda referendum keçiriləndə, Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə referendum keçirilməmişdir. Göründüyü kimi, atılan bu addımlar Azərbaycanın müstəqilliyinə xidmət edirdi. Xatırlasaq, Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqillik tarixinin tarixi paralellər fonunda bugünkü və gələcək nəslə çatdırılmasını qarşıya mühüm vəzifə kimi qoyurdu. Yeni Azərbaycan Partiyasının 21 noyabr 2001-ci il tarixdə keçirilən II qurultayında Ulu Öndər Heydər Əliyev bildirmişdir: "Bəziləri indi deyirlər ki, müstəqilliyi biz əldə etmişik. Əgər siz, həqiqətən, bu müstəqilliyi almısınızsa, bəs bunu nə üçün qoruyub-saxlaya bilmirdiniz? Nə üçün? Təxminən, 1 il 6-7 ay yaşı olan müstəqil Azərbaycan dövləti artıq dağılırdı, parçalanırdı, vətəndaş müharibəsi başlanmışdı. Təbiidir ki, Azərbaycanın müstəqilliyi böyük təhlükə altında idi... biz müstəqilliyin 10-cu ildönümünü artıq dünyada tanınmış, daxildə ictimai-siyasi vəziyyəti sabitləşdirmiş, ölkəni iqtisadi, sosial və siyasi böhrandan çıxarmış və nəhayət, 1995-ci ildən başlayaraq bütün sahələrdə inkişafı təmin etmiş bir müstəqil Azərbaycan dövləti olaraq qeyd etdik. Bunlara görə də, bizim əsasımız vardır deyək ki, Yeni Azərbaycan Partiyası, bizim hamımız və təbiidir ki, Azərbaycanın Prezidenti və partiyanın Sədri müstəqilliyin həyata keçirilməsinin əsas qüvvəsidir və təkcə onun qorunub-saxlanılmasının yox, Azərbaycanın müstəqil dövlət kimi ağır şəraitdə inkişaf etməsinin təminatçısıdır."

## Azərbaycanın gələcəyi üçün müəyyənləşdirilən perspektivlərin reallaşması Böyük Qayıdışa əsaslanır

Uğurlu daxili və xarici siyasətin nəticəsi olaraq, qısa müddətdə sabitlik diyarına və böyük investisiyalar məkanına çevrilən Azərbaycanda öz təbii sərvətlərinin əsl sahibi kimi onlardan səmərəli istifadəni təmin etmək üçün biri-birindən önəmli addımlar atıldı. Öncə, onu qeyd edək ki, məhz Ulu Öndər Heydər Əliyevin gərgin səylərinin nəticəsində 12 may 1994-cü ildə atəşkəs sazişinin imzalanması hər sahədə uğurlu addımlara geniş yol açdı.

*Ardı Səh. 13*

# Ulu Öndər Heydər Əliyevin ideyaları Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin əsasıdır

*"Nə qədər Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!"*

Əvvəli Səh. 12

Daim yerləşdiyi coğrafi məkana və malik olduğu təbii resurslara görə dünyanın diqqətində olan Azərbaycana maraq daha da artdı, müstəqilliyimizin ilk illərində ölkə iqtisadiyyatına sərmayə yatırmaqda maraqlı olan dövlətlərin, şirkətlərin tərəddütlərinə son qoyuldu. 1994-cü il sentyabrın 20-də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə tarixə "Əsrin Müqaviləsi" kimi daxil olan neft müqaviləsinin imzalanması Azərbaycanın bu gününə və gələcəyinə olan inamı nümayiş etdirdi. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi 200 milyard dollardan artıqdır. Ümummilli Liderin iqtisadiyyatın inkişafında neft amilinə böyük dəyər verməsi onun uzaqgörən siyasətindən irəli gəldi. "Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur" söyləyən Ulu Öndərin müvafiq Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması da bu günümüzə hesablanmış mühüm addımlar sırasındandır. Hazırda aktivlərinin həcmi 36 milyard dollardan artıq olan fondun vəsaitləri hesabına mühüm sosial-iqtisadi layihələr həyata keçirilir ki, bu da ölkənin hərtərəfli inkişafına xidmət edir. "Əsrin Müqaviləsi" Azərbaycanın iqtisadi imkanlarının genişlənməsi ilə yanaşı, siyasi mövqeyinin də möhkəmlənməsində əhəmiyyətli rol oynadı. Məhz bu sazişdən sonra onlarla müqavilələrə imza atıldı, anlaşma memorandumları imzalandı. Azərbaycan təkcə neft deyil, təbii qaz ölkəsi kimi də mövqeyini möhkəmləndirdi. Ümumiləşdirilmiş şəkildə qeyd etsək, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyası Azərbaycana davamlı uğurlar qazandırır, etibarlı tərəfdaş kimi nüfuzunu artırır, ən əsası, təşəbbüsləri gerçəkliyə çevirən ölkə kimi tanıdır. Neft strategiyasının həyata keçirilməsində öz payı, rolu olan Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin beynəlxalq nüfuzunun artmasında da iqtisadi imkanlarımıza söykənərək, reallaşdırdığı investisiya layihələri mühüm rol oynayır. Beynəlxalq səviyyədə qeyd olunur ki, SOCAR-ı yalnız və yalnız uğur izləyir. Möhtərəm Prezidentimiz İlham Əliyev 2006-cı ildə Azərbaycan neftinin Ceyhan terminalına çatması münasibətilə xalqa təbrikində bildirmişdir ki, "Əsrin Müqaviləsi" imzalanmasaydı, bu gün Azərbaycanın iqtisadi inkişafını və beynəlxalq münasibətlər sistemində yeri və rolunu təsəvvür etmək çətin deyildi. Ölkə Prezidenti, eyni zamanda, bildirir: "SOCAR beynəlxalq enerji şirkətinə çevrilib. İlk növbədə, ona görə ki, Azərbaycanda belə genişmiqyaslı böyük layihələr icra edilmişdir."

## İqtisadi inkişaf demokratik islahatları şərtləndirdi

Ulu Öndər Heydər Əliyevin apardığı uğurlu daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur.

Demokratik-hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yürüdərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. Demokratik cəmiyyətin varlığını şərtləndirən bütün amillər ölkəmizdə bərqərar olundu. 1995-ci il noyabrın 12-də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanan və ümumxalq səsverməsi yolu ilə Konstitusiyanın qəbulu Azərbaycanın hüquqi-demokratik dövlət quruculuğu yoluna işıq saldı. Konstitusiyada əksini tapan maddələrin üçdə iki hissəsi insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir. Ölkədə vətəndaşlara bütün azadlıqlar verilib. Sərbəst toplaşmaq azadlığı yüksək səviyyədə təmin edilir. Çoxpartiyalı sistem yaradılıb. Bu gün ölkəmizdə 40-dan artıq siyasi partiyanın, 3 minə yaxın qeyri-hökumət təşkilatının qeydiyyatdan keçməsi, onların normal fəaliyyəti üçün təkmil qanunvericilik bazasının yaradılması da, demokratik inkişafın əsas göstəricilərindəndir. Ölkədə seçkilərin demokratik, azad, şəffaf və beynəlxalq standartlara uyğun keçirilməsi üçün təkmil seçki sistemi formalaşdırılıb. 2003-cü ilin mayında Azərbaycan hökumətinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu, həmçinin, Avropa Şurası Venesiya Komissiyası ilə birgə əməkdaşlığı nəticəsində Seçki Məcəlləsi qəbul olunub. Konstitusiyamıza, Seçki Məcəlləsinə, eyni zamanda, bu və ya digər sahələri əhatə edən qanunlarımıza zaman-zaman edilən əlavə və dəyişikliklər dövlətimizin yeniləşmə və təkmilləşmə siyasətinə bir daha işıq salır.

Azad mətbuatın inkişafı dövlət siyasətinin əsas tərkib hissəsinə çevrildi. 1998-ci ildə senzuranın ləğvi mətbuatın inkişafında yeni bir mərhələnin təməlini qoydu. Jurnalist əməyini yüksək dəyərləndirən Ümummilli Lider Heydər Əliyev media nümayəndələri ilə keçirdiyi mütəmadi görüşlərində onların problemləri ilə yaxından maraqlanır, onların həlli istiqamətində zəruri addımlar atırdı. Ulu Öndərin bir tələbi vardır- jurnalist peşəkar olmalı, cəmiyyətin informasiya tələbatını heç bir qərəzə yol vermədən, obyekiv şəkildə ödəməlidir. Məhz bu diqqət və qayğının nəticəsi olaraq, Ulu Öndər Heydər Əliyev 2002-ci ildə "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşdür.

## Azərbaycanın xarici siyasəti milli maraqlar əsasında qurulub

Ulu Öndər Heydər Əliyev bildirirdi ki, müstəqillik yolunda ilk addımlarını atan bir dövlətin qarşısında duran əsas vəzifələrdən biri varlığını təsdiqləmək, beynəlxalq aləmdə yerini və rolunu möhkəmləndirməkdir. Bir dövlətin xaricdə varlığı kimi diaspor quruculuğu prosesinə xüsusi diqqət yetirildi. Ayrı-ayrı ölkələrdə soydaşlarımızın birliyinə nail olduqdan, mərkəzlər yaradıldıqdan sonra onların vahid mərkəzdən idarə olunması məsələsi gündəmə gətirildi. Məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ilin noyabrında ölkəmizdə Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Bu qurultay soydaşlarımızın birliyi və həmrəyliyi istiqamətində mühüm hadisə oldu. Məhz o zamandan başlayaraq, ənənəvi olaraq, hər 5 ildən bir dünya azərbaycanlılarının qurultayı keçirilir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövləti qarşısındakı xidmətlərindən bəhs edərkən, ətrafında yaradılan informasiya blokadasının dağıdılması istiqamətində göstərdiyi səyləri xüsusi qeyd etməliyik. Məlumdur ki, ermənilərin və erməni diasporunun səyləri nəticəsində ABŞ Konqresi ölkəmizə qarşı ədalətsiz "907-ci düzəliş"i tətbiq etmişdir. Bu "düzəliş"in hansı dövlətlərə tətbiq olunduğu aydındır. Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdığı gündən əsas diqqət göstərdiyi məsələlərdən biri, məhz Azərbaycan haqqında qərəzli təbliğatlara real faktlarla cavab vermək və erməni yalanlarını ifşa etmək idi. Ümummilli Liderin xarici ölkələrə elə bir səfəri yox idi ki, Dağlıq Qarabağ problemi əsas müzakirə mövzusu olmasın. Azərbaycan həqiqətlərini ən yüksək tribunalardan bəyan edən Ulu Öndər Heydər Əliyev ermənilərin tarixi saxtalaşdırmaqda ittiham etdi, dünyanı bu yalanlara münasibətini bildirməyə çağırdı. Ulu Öndərin xalqın təkidli tələbi ilə, ikinci dəfə hakimiyyətə qayıdışından sonra xarici ölkələrə ilk səfərini Fransadan başlaması da səbəbsiz deyildi. Nəzərə alsaq ki, Fransa Ermənistana yaxın, eyni zamanda, erməni diasporunun daha güclü olduğu ölkələrdəndir, bu halda, səfərin ölkəmiz üçün əhəmiyyəti aydın olur. Zaman-zaman xarici siyasətimizin əsas prinsiplərinə uyğun olaraq, atılan addımlar Azərbaycanın beynəlxalq aləmdə yeri və rolunu daha da möhkəmləndirdi. 2001-ci ildə Azərbaycan dövlətinin uğurlu xarici siyasəti nəticəsində ədalətsiz ABŞ hökuməti "907-ci düzəliş"in tətbiqi ilə bağlı qərarı bir illik dondurdu. Hər il bu qərar yenidən təsdiqlənir. Təbii ki, bu kimi addımlar və uğurlar Azərbaycanın tarixi həqiqətlərə sığınan təbliğatına əsaslanır.

## Yeni Azərbaycan Partiyası Azərbaycanın müstəqillik tarixinin bələdçisidir

Ümummilli Lider Heydər Əliyevin xidmətləri sırasında bu gün sıralarında 700 mindən artıq üzvü birləşdirən Yeni Azərbaycan Partiyasının yaradılması dayanır. Partiyanın hansı zərurətdən yarandığı məlumdur. Bu, o dövr idi ki, Azərbaycan bir dövlət olaraq, dünyanın siyasi xəritəsindən silinmək təhlükəsini yaşayırdı. Xalqın sabaha ümidi itmişdi. Xaos, anarxiya, özbaşınalıq və iqtisadi böhran baş alıb gedirdi. Xalqın böyük əksəriyyətinin istəyini özündə ehtiva edən 91 nəfər ziyalının Ulu Öndər Heydər Əliyevə Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı müraciəti, Ümummilli Liderin bu müraciətə müsbət cavabı bugünkü uğurlarımıza yol açdı. Bu günlərdə yaradılmasının 25 illik yubileyini qeyd edən Yeni Azərbaycan Partiyası cəmiyyətin əsas aparıcı qüvvəsi kimi böyük nüfuza malikdir. Ulu Öndər Heydər Əliyev ideyalarının, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin təbliğatçıları olan partiyanın hər bir üzvü günbəgün möhkəmlənən, qüdrətini artıran, davamlı uğurlara imza atan Azərbaycanın yeni hədəflərə çatmasına öz töhfələrini vermək üçün birlik və həmrəylik nümayiş etdirir. Dövlətimizin başçısı İlham Əliyev keçilən 25 illik yolu ümumiləşdirilmiş şəkildə belə ifadə etmişdir: "Bu gün partiyamız, ölkəmizin aparıcı siyasi qüvvəsi kimi, bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Partiyamızın üzvləri müxtəlif sahələrdə ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər. Bu gün Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyadır. Bizim beynəlxalq əlaqələrimiz də genişlənir. Beləliklə, məndə partiyamızın gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər var."

## 2003-cü ildən başlanan yol yeni-yeni hədəflərin gerçəkləşməsini şərtləndirdi

Ulu Öndər Heydər Əliyevin 1 oktyabr 2003-cü ildə Azərbaycan xalqına müraciətini xatırlatmaq istərdim: "Bu günlərdə mənim Azərbaycan Respublikasına, bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə prezident kimi rəhbərliyimin isə 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, prezident kimi mənim həyat amalım yalnız Sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi və mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib." Məhz bu birlik Azərbaycana davamlı uğurlar qazandırdı, dünya birliyinin layiqli üzvünə çevirdi. Ümummilli Lider müraciətdə bu məqamı xüsusi qeyd etmişdir ki, öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam: "Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər Sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var... öz namizədliyimi İlham Əliyevin xeyrinə geri götürürəm. Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm."

2003-cü il prezident seçkilərində xalqın böyük əksəriyyətinin səsini qazanaraq prezident seçilən Cənab İlham Əliyev hər bir vədini konkret əməli işdə təsdiqləməklə növbəti- 2008 və 2013-cü il prezident seçkilərində qələbəsini təmin etdi. Dövlətimizin başçısı İlham Əliyevin 2003-cü ildə Prezident kimi jurnalistlərə ilk müsahibəsində söylədiyi kimi, Azərbaycanda ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün gözəl zəmin yaranıb. Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyub. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma eyni zamanda, həyat yerində durmur. Yeni tələblər çıxır, qarşımıza yeni vəzifələr qoyur.

Son 14 ildə möhkəm təmələ əsaslanaraq həyata keçirilən təkmil islahatlar Azərbaycanın daha möhtəşəm uğurlara imza atmasını şərtləndirir. Modernləşmə, yeniləşmə dövlət siyasətinin ana xəttini təşkil edir. Azərbaycanın bu illərdə neft siyasətinin məntiqi davamı olaraq qeyri-neft sektorunun inkişafı istiqamətində atdığı addımlar beynəlxalq maliyyə qurumlarının hesabatlarında da öz əksini tapır. Neft kapitalının insan kapitalına çevrilməsi artıq reallıqdır. İqtisadi tərəqqi əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində davamlı addımları şərtləndirir.

Ardı Səh. 14

# Ulu Öndər Heydər Əliyevin ideyaları Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin əsasıdır

*"Nə qədər Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!"*

Əvvəli Səh. 13

O da məlumdur ki, 2009-cu ildə Konstitusiyanın "Dövlətin ali məqsədi" maddəsinə belə bir əlavə olundu ki, dövlətin ali məqsədi insan hüquq və azadlıqlarının qorunması və yüksək həyat səviyyəsinin təmin edilməsidir. İnsan amilinə verilən dəyər ölkə Prezidenti İlham Əliyevin hər addımında özünü qabarıq şəkildə büruzə verir.

Son 14 il Azərbaycan tarixinə iqtisadi islahatlar ili kimi daxil olub. Hər bir ildə daha böyük təkmilləşmənin və yeniləşmənin şahidi oluruq. Bunun nəticəsidir ki, Azərbaycan ən islahatçı ölkə kimi dünya birliyində özünə layiqli yer tutur.

İqtisadi və siyasi islahatların vəhdətliyi fonunda Azərbaycana beynəlxalq münasibət daha da yüksəlir. Azərbaycan demokratik ölkə kimi nüfuz qazanıb. İnsan hüquqlarının müdafiəsi, azad mətbuatın inkişafı, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində göstərilən səylərin miqyası genişdir. Əsas olan mövcud reallıqlarımızın ölkə və dünya ictimaiyyətinə yüksək səviyyədə, heç bir qərəzə yol vermədən çatdırmaqdır. Bu halda, mətbuatın üzərinə düşən məsuliyyətin böyüklüyü daha aydın görünür. Dövlətimizin başçısı İlham Əliyevin müvafiq Sərəncamı ilə KİV-in İnkişafına Dövlət Dəstəyi Konsepsiyasının təsdiqlənməsi və icrası, sənədə uyğun olaraq, Azərbaycan Respublikası Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması, jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində atılan davamlı addımlar və s dövlətin müstəqil mətbuatın inkişafına verdiyi önəmə işıq salır. Bu diqqət və qayğı Möhtərəm Prezidentimiz İlham Əliyevin 14 ildə 3 dəfə "Jurnalistlərin dostu" mükafatına layiq görülməsini şərtləndirmişdir.

Uğurlarımız Azərbaycanın beynəlxalq nüfuzunda da özünü göstərir. 2011-ci ildə Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Bu, Azərbaycanın artan mövqeyinin və nüfuzunun göstəricisi idi. Diplomatik mübarizədə qələbə və iqtisadi imkanların artması fonunda ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi, gücünün və qüdrətinin artması yeganə problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə inamı artırır.

Azərbaycanın 20 illik müstəqillik tarixində qazandığı uğurlara söykənərək, 2011-ci ildə təsdiqlənən "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında qarşıdakı illərin hədəfləri öz əksini tapıb. Ən əsası Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək istəyimizi ortaya qoymuşuq. Bunun üçün bütün imkanlar mövcuddur. Əgər dünya inkişafın Azərbaycan modelindən bəhs edirsə, bu, möhkəm təmələ əsaslanan siyasətin nəticəsidir.

Azərbaycan bu gün beynəlxalq əhəmiyyətli tədbirlər üçün ideal məkan kimi qəbul olunur. Ölkəmizə gələn qonaqlar inkişafdan heyrətlərini gizlətmirlər. Ölkəmizin iqtisadi inkişafı möcüzə kimi dəyərləndirilir. Ulu Öndər Heydər Əliyevin iqtisadiyyatın inkişafında neft amilinə xüsusi önəm verməsi bugünkü uğurlarımız üçün açar rolunu oynayır. Dünyanın enerji təhlükəsizliyinin təminatında ölkəmizin artan rolu reallaşdırdığı və reallaşması istiqamətində addımlar atdığı layihələrdən də aydın görünür. Vaxtilə çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz kəmərləri dünyaya açılan pəncərə rolunu oynayaraq, bu gün "Cənub Qaz Dəhlizi" o cümlədən, TAP, TANAP, layihələrindən bəhs etməyə əsas yaratdı. Bu ilin sentyabrında, "Əsrin Müqaviləsi"nin 23 illiyində "Yeni əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın etibarlı tərəfdaş imicini bir daha təsdiqlədi.

Göründüyü kimi, Möhtərəm Prezidentimiz İlham Əliyevin ilk müsahibəsində vurğuladığı fikirlərə istinadən hər dövrün öz tələbləri vardır. Azərbaycan bu tələbləri müstəqil siyasəti, təkmil islahatları ilə cavablandırır, davamlı inkişafı təmin edir. Ölkəmizin dayanıqlı inkişafına xidmət edən yol xəritələri perspektivlərin bələdçiləridir.

Zamanın tələblərindən biri kimi idarəçilik sistemində təkmilləşməyə uyğun olaraq, vitse-prezidentlik institutunun yaradılması, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın I vitse-prezidenti təyin olunması ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. Bütün fəaliyyətini Azərbaycan dövlətinin və dövlətçiliyinin inkişafına və möhkəmləndirilməsinə yönəldən Mehriban xanım Əliyevanın xidmətlərinin miqyası genişdir.

Xalqımız Möhtərəm Prezidentimiz İlham Əliyevin, Azərbaycanın I vitse-prezidenti Mehriban xanım Əliyevanın həyata keçirdiyi siyasətin uğurlarının bələdçisi kimi daim onları dəstəkləyir, sabaha inamla addımlayır. Hər gününü tarixə bir uğur səhifəsi kimi yazan Azərbaycanın qarşısında daha geniş imkanlar mövcuddur. Ulu Öndər Heydər Əliyevin ideyaları Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin əsasıdır.

Heydər Əliyev yolunun Azərbaycana qazandırdığı uğurları bir yazı çərçivəsində əhatə etmək qeyri-mümkündür. Bu yol Azərbaycanın bugünkü reallıqlarıdır. O reallıqlar ki, Azərbaycan bu gün regionun aparıcı qüvvəsi, dünya birliyinin fəal üzvüdür. Azərbaycan bu gerçəkliklərə əsaslanaraq, yeni-yeni hədəflərə doğru inamla addımlayır. Möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın daha qüdrətli, zəngin dövlətə çevrilməsi üçün Ulu Öndər Heydər Əliyevin siyasəti uğurla davam etdirilir. Son 14 ildə keçirilən prezident seçkilərində Cənab İlham Əliyevin təkrar-təkrar öz qələbəsini təmin etməsi, 2018-ci ildə keçiriləcək prezident seçkilərinə böyük inam bəsləməyimiz, təbii ki, xalqın Heydər Əliyev siyasətinə dəstəyinin göstəricisidir. Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə yaşayacaqdır!

# Azərbaycanla Rusiya arasında daim qarşılıqlı anlaşma mühiti mövcud olub

*Erməni lobbisinin son fəaliyyətləri, məhz bu mühiti pozmağa yönəlib*

***Azərbaycan dövləti daim uğurlu qonşuluq siyasəti yürütməklə, istər regionda, istərsə də beynəlxalq aləmdə öz uğurlu siyasi mövqeyini qoruyub. O cümlədən, tolerantlıq, multikultural dəyərlərə önəm vermək və xalqlar arasında davamlı dostluq-qardaşlıq bağlarının möhkəmliyi xalqımızın tarxi irsinə bağlı olan əhəmiyyətli məqam olaraq qiymətləndirilir.***

Əbəs yerə deyil ki, bu mühüm amil ölkəmizin Rusiya Federasiyası ilə münasibətlərində də özünü kifayət qədər ehtiva etməkdədir. Belə ki, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında, eləcə də, hər iki ölkənin rəhbərliyi arasında daim qarşılıqlı anlaşma mühiti hökm sürüb. Bütün bunlara misal kimi iqtisadi və s. sferalarda əldə edilən nailiyyətləri göstərə bilərik.

Xüsusilə, qeyd edə bilərik ki, ölkələrimiz arasında təhlükəsizlik məsələləri həmişə qarşılıqlı anlaşma şəraitində müzakirə edilib və mühüm razılaşmalar əldə olunub. Məsələn, Azərbaycan öz ərazisindən Rusiyaya qarşı üçüncü tərəflərin, beynəlxalq terror şəbəkələrinin, ayrı-ayrı separatçı qüvvələrin istifadəsinin və belə qüvvələrin respublikamızdan keçərək, Şimal qonşumuzun ərazilərinə sızmasının qarşısını qətiyyətlə alıb. O da sirr deyil ki, Rusiya və Azərbaycan terrorizm və ekstremizm yayılmasının qarşının alınması məqsədilə birgə uğurlu əməliyyatlar keçiriblər. Bütün bunlar isə, bilavasitə Azərbaycanın dostluq, yaxın qonşuluq istiqamətindəki maraq dairəsini qoruyub-saxlamasından irəli gələn məqamlardandır.

Həmçinin, daha bir fakt da budur ki, ölkəmizin mediası - kütləvi informasiya vasitələri, habelə, vətəndaş cəmiyyəti təsisatları Rusiyanın ərazi bütövlüyü ilə bağlı önə çıxan məsələlərin müzakirəsində Azərbaycan və Rusiya xalqlarının qardaşlıq münasibətlərinə zidd mövqe sərgiləməkdən çəkiniblər.

Lakin təəssüf ki, eyni fikirləri Rusiyanın bəzi çevrələrinə, qaranlıq dairələrinə, onların təsirində olan KİV-lərə və vətəndaş cəmiyyəti təsisatlarına şamil etmək mümkün deyil. Daha doğrusu, Rusiyanın müəyyən strukturlarına sızmış erməni əsilli şəxslər, artıq həmin strukturları, Rusiya mediasını və vətəndaş cəmiyyəti təsisatlarını Ermənistan dövlətinin anti-Azərbaycan siyasətini yürütmək üçün alətə, Moskvanı öz məkrli planlarının həyata keçirilməsi üçün platsdarma çevirməkdədir. Buna misal kimi aşağıdakı faktları göstərə bilərik.

Bir müddət əvvəl, işğalçı və təcavüzkar Ermənistanda Azərbaycan əleyhinə "ikinci cəbhə" açmaq məqsədilə Azərbaycan dövlətinə, o cümlədən, mənsub olduqları Talış bölgəsinə və talışəsilli vətəndaşlarımıza xəyanət etmiş Fəxrəddin Abozadə və Zabil Məhərrəmov kimilərdən istifadə edilərək, telekanal və mərkəzlər açılmışdı. Onu da, xüsusilə qeyd etmək yerinə düşərdi ki, məhz Azərbaycan ictimaiyyətinin, ilk növbədə, talışəsilli vətəndaşlarımızın qınağı səbəbindən, erməni xüsusi xidmət orqanları taktikalarını dəyişərək, həmin qurumların fəaliyyətini Moskvadakı bəzi dairələrə köçürüblər.

### Fəxrəddin Abozadə və Zabil Məhərrəmov - erməni lobbisinin siyasi tulaları!

Xatırladaq ki, bu fəaliyyətlərdə adıçəkilən F.Abozadə 1981-95-ci illərdə BDU-da işləyib və onun əvvəlcə Kommunist Partiyası, sonra isə AXC hakimiyyəti dövründə sürətli karyera sıçrayışı etmək cəhdləri uğursuzluqla nəticələnib. Yeri gəlmişkən, onun "Politologiya" dərsliyi adıyla AXC-ni və onun sədrini öyən kitab yazması da "lazımınca" qiymətləndirilməmişdi. Beləliklə, onun mənsub olduğu linqvistik icmanı regional separatçılıq avantürasını çəkmək cəhdi isə, bölgə əhalisinin qətiyyətli və sərt etirazları nəticəsində iflasa uğramışdı.

Məhz bundan sonra Rusiyaya sığınan F.Abozadə erməni xüsusi xidmətinin və Rusiyanın bəlli qaranlıq çevrələrinin tapşırığı ilə fəaliyyət göstərməkdədir.



Yeri gəlmişkən, Azərbaycan dövlətinə və xalqına təhqirlər yağdıran Zabil Məhərrəmov da hazırda "fəaliyyəti"ni Yerevandan Moskvaya köçürüb və bu təxribat planlarını da elə oradan həyata keçirir. Bir müddət əvvəl, bu şəxs mətbuatda "bizim qardaşlarımız türklər yox, ermənilərdir. Ermənistan bizim pənahımızdır" bəyanatı ilə çıxış edən satqın, vətən xaini, məhz Z.Məhərrəmovdur. Bütövlükdə isə, Fəxrəddin Abozadə və Zabil Məhərrəmov erməni lobbisinin siyasi tulalarıdırlar!

### Separatçı və ekstremist telekanalda "Cahangir Şıxızadə" adlı Sargis Asatryan...

Xatırladaq ki, dördgünlük aprel döyüşləri zamanı Z.Məhərrəmov hərbi əməliyyatlarda ermənilərin itkilərini gizlətməyə çalışır, onların az qala "Bakıya çatacaqlarını" vurğulayırdı. Ermənistan ordusunun ağır itkilər verdiyini, mövqelərini itirdiyini və geri çəkildiyini Yerevanın özü etiraf edəndən sonra isə, Z.Məhərrəmov çıxışlarının ritorikasını dərhal dəyişib, "məzlum ermənilər" barədə sürəkli "reportaj"lar hazırlayaraq, yaymağa başlayıb.

Digər bir fakta diqqət yetirək: Belə ki, Z.Məhərrəmovun açdığı "telekanal"ın aparıcılarının erməni əsilli olması haqda mediada araşdırmalar dərc olunub. "Telekanal"ın məhərrəmlik mərasimlərindən danışan xanım aparıcısının erməni olması, başqa aparıcı "Cahangir Şıxızadə" adlı şəxsin də, əslində, erməni Sargis Asatryan olması aparılan araşdırmalardan sonra ifşa edilib.

Beləliklə, fakt budur ki, bu gün Rusiya ilə Azərbaycan arasında olan dostluq və yaxın qonşuluq münasibətləri erməni lobbisinin, onların havadarlarının işlərinə cidi əngəl yaradır. Ona görə də, Azərbaycan əleyhinə bu tipli aqressiv fəaliyyətin Moskvada rahatlıqla özünə meydan tapması Rusiya-Azərbaycan münasibətlərinin ruhuna zidd olaraq, qiymətləndirilməlidir. Həmçinin, belə halların qarşısının alınmasının vacibliyi özünü daha çox göstərməlidir. Çünki bununla, yalnız Azərbaycana deyil, Rusiyanın da mənafelərinə xəyanət edilir!

Artıq Rusiya tərəfi də anlamalıdır ki, erməni lobbisi öz xəyanətkarlıq maşınını müxtəlif çirkin üsullarla işə salıb. Ona görə də, Rusiya tərəfi də erməni lobbisinin Moskvanı get-gedə öz xəyanətlərinin qurbanına çevirməsinin, onu geostrateji əhəmiyyətlə bölgələrdə daha çox təcrid etməsinin fərqində olmalıdır.

**Rövşən RƏSULOV**

# Azərbaycanda uşaq tərbiyəsi ənənələri: adqoyma mərasimləri və valideynə hörmət

***Azərbaycan ailəsində körpəyə ad qoymaq mərasimi də bir şənlik olmuşdur. Adqoyma mərasimi bəzi bölgələrdə uşağın anadan olmasının 7-ci günü, bəzi bölgələrdə isə 10-cu günü keçirilərdi. Ailədə qonaqlıq üçün xörək tədarükü görülür və qohum-qonşular dəvət olunurdu.***

Öncə körpənin sağ qulağına "azan", sol qulağına isə "iqamə" oxuyar, sonra ad qoyardılar. Körpə üçün, adətən, müqəddəs "Quran"dan adlar seçilirdi. Körpəyə peyğəmbərlərin, xəlifələrin, imamların və onların övladlarının adları ilə bərabər, uşağın babasının və nənəsinin də adı qoyulurdu. Azərbaycan ailəsində uşağa islam dini ilə bağlı ərəb mənşəli adlarla yanaşı, müəyyən mənası olan türk və İran mənşəli dünyəvi adlar da qoyulurdu. Oğlanlar üçün belə adlar igidliyi, mərdliyi, şücaəti, cəsarəti, qorxmazlığı, müdrikliyi, aqilliyi və ədalətliyi əks etdirirdi. Qızlar üçün isə, adətən, səadət, sədaqət, nəciblik, xoşbəxtlik, səma cisimlərini və gözəllik nümunələri hesab edilən gül, çiçək, heyvan və quş adlarını bildirən zərif adlar seçilərdi.

Q.Rəcəblinin qeyd etdiyi kimi, Azərbaycan ailəsində uşağı, 6 aylığından sonra yeməyə öyrədərdilər. Uşaq birinci dişini çıxaranda, ailədə hamı sevinər və hədik bişirib, qonum-qonşuya paylardılar. Körpənin bir yaşı tamam olanda, saçını qırxdırardılar. Uşağa şər qarışandan sonra yemək verməzdilər. Uşağı kiçik yaşlarından əl-üzünü yumağa məcbur edər və o, süfrə kənarında əli çirkli oturduqda, əllərini yumasını tələb edərdilər. Bütün bunlar uşağın sağlam böyüməsi, onda səliqə və təmizlik vərdişləri tərbiyə edilməsi məqsədini daşıyırdı.

Oğlan uşaqlarının sağlamlığını təmin etmək məqsədilə onları sünnət edərdilər. Gigiyenik tədbir kimi həyata keçirilən sünnət mərasimləri oğlanların fiziki tərbiyəsi ilə bağlı olmuşdur. Bəzən sünnəti dini adət kimi qələmə verir və oğlan sünnət edildikdən sonra ona: "Bu gündən müsəlman oldun", - deyirlər. Əslində isə, sünnət islam dini ilə bağlı adət olmamışdır. Yəhudilərdə də sünnət adəti vardı. Yəhudi rəvayətlərinə görə, sünnət adəti, guya İbrahim peyğəmbərin öz oğlu İshaqı sünnət etməsi ilə başlanmışdır. Qeyd etmək lazımdır ki, sünnət yalnız monoteist dinlərə sitayiş edən yəhudilər və müsəlmanlar arasında deyil, qədimdə ibtidai dinlərə sitayiş edən dünyanın başqa xalqları arasında da yayılaraq, dini xarakter daşımamışdır. Bir çox tayfalarda isə, gənclərin hərbçilər sosial təbəqəsinə qəbul edilməsilə bağlı mərasim olmuşdur. Yəhudilərin adətinə görə, körpə 7 günlüyündə sünnət edilirdi. Xəlifə Əli (ə) buyurmuşdu: "Öz övladlarınızı doğumunun yeddinci günü sünnət edin və isti-soyuqdan çəkinməyin, bu canın paklığına səbəb olar". Lakin sonralar müsəlmanlarda oğlan uşağını 7 yaşında sünnət etmək bir qayda kimi qəbul olundu. Azərbaycanda, adətən, oğlan uşaqlarını 5-8 yaş arasında, bəzən daha tez sünnət edərdilər. Keçmişdə oğlan uşağının sünnət edilməsi varlı ailələrdə toy şənliyinə çevrilərdi. Bu şənlik bəzi bölgələrdə "sünnət toyu", bəzilərində isə "kiçik toy" adlanardı.

Azərbaycanın Şəki, Şirvan, Qarabağ, Gəncə, Qazax və b. qərb bölgələrində sünnət adəti ilə əlaqədar "kirvəlik" institutu olmuşdu. Keçmişdə "kirvəlik" institutu Azərbaycanın Xəzərsahili şərq bölgələrində geniş yayılmamışdı. Cənubi Azərbaycanda isə, belə bir ailə ənənəsi olmamışdı. "Kirvə" sünnət vaxtı oğlanı "tutan" adama deyilirdi. Kirvə uşağı qucağında oturdub, tuturdu ki, sünnət zamanı uşaq əl-ayağını tərpətməsin. Dəllək bir anda uşağı sünnət edir, sonra isə qan axmasının qarşısını almaq üçün kəsilmiş yerə ələnmiş kül səpirdi. Kirvənin seçilməsinə xüsusi fikir verilirdi. O, ailəyə münasib adamlardan - dostlardan seçilərdi. Sünnətdən bir neçə gün əvvəl uşağın ata-anası qiymətli hədiyyələrlə "kirvəgördü"yə gedərdi. Sünnətdən sonra isə kirvə xonça bəzəyib ailə üzvlərilə birlikdə "tutduğu" oğlanı görməyə gələrdi. Belə qarşılıqlı "kirvəgördü" yoluxmaları iki ailə arasında sonralar da davam edərdi və çox vaxt ailə hüdudlarından kənara çıxardı. Yaxın qohumlar da "kirvəgördü" qonaqlıqlarında iştirak edərdilər. Nəticədə, iki ailə, iki nəsil arasında mehriban, qardaşlıq münasibətləri yaranardı. Kirvəlik iki nəslin bir növ yeni qohumluq forması olmuşdu. Kirvənin yaxın qohum sayılması ondan görünür ki, ənənəyə görə, kirvənin "tutduğu" oğlan üçün kirvənin qızı bacı hesab edilirdi və onunla evlənmək olmazdı. Kirvəyə ata kimi hörmət edilirdi. Kirvəyə müqəddəs münasibət Şirvan bölgəsində işlədilən belə bir zərb-məsəldə öz əksini tapmışdı: "Allahdan dönmək olar, kirvədən yox".

Azərbaycan ailəsində övladların hərtərəfli inkişaf etmiş kamil şəxsiyyət kimi tərbiyə etmək hər bir valideynin arzusu olmuşdur. Bu məqsədlə əxlaq tərbiyəsinə xüsusi diqqət yetirilirdi. Əxlaq tərbiyəsinin ilkin mərhələsi ata-ana nümunəsi olmuşdu.

Ata və ananın qarşılıqlı hörmətə əsaslanan münasibətləri, səmimi, mehriban və qayğıkeş rəftarları ailədə sağlam mənəvi mühit yaradırdı. Bunun isə, bir tərəfdən, müsbət nümunə kimi uşaqların bir-birlərinə münasibətlərinin tənzim olunması, digər tərəfdən, uşaqlarda valideynlərinə hörmət hissi aşılanması üçün tərbiyəvi əhəmiyyəti vardı.

Q.Rəcəbli daha sonra yazır: "Azərbaycan ailəsində valideyn-övlad münasibətləri qarşılıqlı əsaslar üzərində qurulmuşdu. Valideynlər uşaqlarını ərsəyə çatdırmaq üçün bütün imkan və vasitələrdən istifadə edirdilər. Uşaqlarını ev-eşik sahibi etmək hər bir valideynin ən böyük arzusu idi. Valideynlər qız övladları üçün körpə çağlarından cehiz yığmağa başlayır, oğlan övladlarını evləndirmək üçün hər cür məhrumiyyətlərə dözürdülər. Azərbaycan oğulları və qızları da ailədə həmişə elə davranmışlar ki, valideynlərinin heç biri onlardan inciməsin. Məhəmməd Peyğəmbər (s.) valideynlərə hörmət etməyə, övladları onlarla kobud rəftardan çəkindirməyə çağıraraq, demişdir ki, əgər behişti istəyirsinizsə, ata-anaya yaxşılıq eləyin, əgər cəhənnəm odunu istəmirsinizsə, valideynlərinizə əziyyət verməkdən çəkinin.

Azərbaycan ailəsində ataya hörmət hissinin aşılanması uşaqların tərbiyəsində həmişə birinci dərəcəli əhəmiyyət kəsb etmiş və qədim zamanlardan əxlaq tərbiyəsinin vacib şərtlərindən biri olmuşdur. Bu barədə "Kitabi-Dədə Qorqud"da maraqlı bir epizod var. Tacirlər onları xilas edən igidin Baybura bəyin sağında oturduğunu görüb, yüyürərək, onun əlindən öpürlər. Ata dura-dura onun yanında oğlunun əlini öpmək Baybura bəyi qəzəbləndirir. Çünki tacirlərin hərəkəti atanın oğluna verdiyi tərbiyəyə zidd idi və cəmiyyət tərəfindən qəbul edilmiş əxlaq normalarını pozurdu.

Qədim və orta əsrlərin Oğuz ənənələrinə sadiq qalmış Azərbaycan ailəsində atanın nüfuzu onun xanımı tərəfindən göz bəbəyi kimi qorunurdu. Ana uşaqlarını atanın nüfuzu ilə tərbiyə edərək, onları öyrədirdi ki, Allahdan sonra yer üzündə onun üçün ən böyük varlıq atadır. Ana özü ərinin hörmətini gözləməklə başqalarına nümunə olurdu. Ata otağa daxil olanda, ana uşaqları ilə bərabər ayağa durardı. Ata işdən, yaxud yoldan gəlibsə, arvadı və ya qızlardan biri aftafa-ləyən gətirib, onun ayaqlarını yuyardı. Yemək zamanı ata "bismillah" deyib süfrəyə əl uzatmayınca heç kəs süfrəyə əl uzatmazdı".

Ailədə anaya hörmət də uşaqların tərbiyəsində mühüm yer tuturdu. Ana evin xanımı sayılırdı. Ailə həyatına dair bütün məsələlərdə əri onunla məsləhətləşirdi. Ananın öz uşaqları üstündə çəkdiyi əziyyətlərinin, hamiləlik və doğum vaxtının məşəqqətlərinin əvəzini heç bir şeylə ödəmək mümkün deyildi. N.Tusi yazır ki, ana uşaqlarını yedizdirir, xeyirli şeyləri onlara çatdırır, zərərli işlərdən onları çəkindirir. Uzun müddətli şəfəqqət və mehribanlıq nəticəsində ananın uşaqlarına məhəbbəti o qədər artır ki, onların həyatını öz həyatından üstün tutur. Ana haqqı "Tanrı haqqı" adlandırılır. Ananın haqqı Məhəmməd Peyğəmbərin (s.) kəlamında lakonik ifadə ilə belə qiymətləndirilmişdir: "Cənnət anaların ayaqlarının altındadır". Ata və ana hüquqları müqayisə edilsə, ata hüququ daha çox mənəvi, ana hüququ isə nisbətən cismanidir. Bu səbəbə görə də, uşaqlar ana qayğısını daha tez hiss edir və analarına daha çox meyil göstərirlər.

Ailədə uşaqların tərbiyəsi onların bələnməsindən, əmizdirilməsindən, yedizdirilməsindən və onlarla oynamaqdan və söhbət etməkdən başlanırdı. N.Tusi yazır ki, "uşaq süddən ayrıldıqdan sonra, hələ əxlaq korlanmağa vaxt tapmamış onu tərbiyə etməyə, nizam-intizama öyrətməyə başlamaq lazımdır". Azərbaycan ailəsində uşaqlara kiçik yaşlarından öyrədirdilər ki, süfrə başında söhbət etmək olmaz, böyük danışanda, kiçik qulaq asmalıdı, özündən böyüklə, xüsusilə, ağsaqqalla söhbət edəndə, ucadan danışmaq, əlini cibinə salmaq, əl-qol hərəkəti etmək ədəbsizlikdir. Valideynlər uşaqlarına təlqin edirdilər ki, yalnız halal şey yesinlər, qismətdən artığa göz dikməsinlər, insaflı olsunlar, ətrafdakılara diqqətli olsunlar, onların qayğısına qalsınlar və ehtiyacı olanlara imkan dairəsində köməklik göstərsinlər. Ağsaqqala, qonşuya, qonağa və qadınlara hörmət hisslərinin aşılanması da uşaqların ailə tərbiyəsinin mühüm ünsürləri olmuşlar. Azərbaycan ailəsində uşaqlara kiçik yaşlarından əmək vərdişləri öyrədirdilər. Kənd yerlərində oğlanlar çöl işlərində atalarına kömək edər, kiçik yaşlarından anaları ilə birlikdə meşəyə gedər, odun gətirərdilər, qızlar isə ev işlərində analarına yaxından kömək edərdilər.

Uşaqların fiziki tərbiyəsində keçmişdə də uşaq oyunları, o cümlədən, uşaq idman oyunları əhəmiyyətli yer tuturdu. Azərbaycanın əsilzadə və dövlətli ailələrində uşaqların fiziki tərbiyəsinin qayğısına xüsusi qalırdılar. Xan və bəy uşaqlarına atıcılıq məharətini öyrədərdilər. Ataları onları özləri ilə birlikdə ova aparardı. Xalqın bütün sosial təbəqələrinin oğlan uşaqlarına kiçik yaşlarında at sürmək vərdişləri öyrədilirdi. Keçmişdə xalqımızın təkcə oğlanları deyil, qızları da idmanla məşğul olmuşlar. Bu, onların fiziki kamilliyi, at çapmaq məharəti, ox atmaları, qılınc oynatmaları, qurşaq tutub güləşmələri haqqında "Dədə Qorqud", "Şah İsmayıl", "Məhəmməd və Güləndam" və s. dastanlarda verilən məlumatdan aydın olur.

Ailədə uşaqların əqli tərbiyəsinə də qayğı göstərilərdi. Dövlətli ailələrdə körpə vaxtı uşaqların tərbiyəsi ilə dayələr məşğul olardılar. Uşaq 6-7 yaşına çatdıqda, onu oxumaq üçün mollaxanaya qoyardılar. İmkanlı ailələr isə uşaqlarını mədrəsə və dünyəvi məktəblərdə oxudur, təhsil və elm almaq üçün İstanbula, Qahirəyə, Nəcəfə, Qori Müəllimlər Seminariyasına, Peterburqa, Moskvaya, Qazana, Odessaya və Rusiyanın başqa şəhərlərinə, Almaniya və Fransa kimi Qərbi Avropa ölkələrinin şəhərlərinə göndərirdilər.

Azərbaycanda keçmişdə uşaqların estetik tərbiyəsinə də fikir verilirdi. Zadəgan ailələrində və şəhərlərin varlı ailələrində musiqi təhsili vermək üçün xüsusi musiqi müəllimləri dəvət olunardı. Kənd yerlərində uşaqlar aşıq musiqisinə və xanəndələrin oxumasına böyük həvəs göstərərdilər. İstedadlı oğlan uşaqlarını ustad aşıqların, görkəmli xanəndələrin, simli, nəfəsli və zərb musiqi alətində çalan sənətçilərin yanında şagird qoymaqla valideynləri onların estetik tərbiyəsinə qayğı göstərir və gələcəkdə məşhur el sənətçilərinin yetişməsini təmin edirdilər. Uşaqların ailə tərbiyəsində ata və ana ilə yanaşı, kənd ağsaqqalları, şəhərlərdə isə məhəllə ağsaqqalları və bütün böyüklər fəal iştirak edirdilər.

Beləliklə, ailə tərbiyəsi nəticəsində uşaqlar milli adət-ənənələrimizi mənimsəməklə cəmiyyətin üzvü olmağı öyrənir, cəmiyyətin davranış qaydalarını, əxlaq normalarını və qanunlarını qəbul etməyə hazırlaşırdılar.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Səs

**Son səhifə** **12 dekabr**

## Xəbərdarlıq: Kompyuterdə işləyərkən, bu qaydalara mütləq əməl edin...

Hamımızın bildiyinə görə, müasir dövrdə bir çox insanlar ofislərdə oturaq həyat sürərək özlərinə bir çox xəstəlilər qazanırlar. Ofis işi adətən monitor qarşısında oturmaqdır ki, bu da əzələ hərəkətsizliyi və səhv qamətdən daha böyük problemlər yarada bilir. Bundan əlavə görmə qabiliyyəti pisləşir və daimi baş ağrıları müşahidə olunur. Sizə komyuter qarşısında düzgün oturma qaydalarını təqdim edirik:

1. Belinizə (kürək) fikir verin. Adətən standart ofis kresloları rahat olaraq sizə narhatçılıq yaratmır, lakin oturduğunuz müddət uzun olduğundan heç bir rahat kreslo belə sizə kömək etmir. Özünüz üçün bir qayda olaraq, hər 10 dəqiqədən bir oturduğunuz pozaya fikir verib qamətinizi düzəldin. Bir müddətdən sonra bu artıq bir adət halına çevriləcək ki, bu da bel sümüyü üçün çox lazımlıdır.

2. Pəncəniz(ayağın altı) tam olaraq yerə dəyməli və oturduğunuz kreslonun hündürlüyü sizin boyunuza uyğun olmalıdır. Diz qapaqlarında ağrı, pəncənin gərginliyi yerişinə təsir edəcək, bu isə bir başa bel sümüyünə öz təsirini gğstərəcəkdir.

3. Əşyalarınızı rahat yerləşdirin ki, işinizi az hərəkət edərək qurtarıb, istirahət edə biləsiniz.

4. Klaviatura, qrafiki planşet və mışka dirsək səviyyəsindən nə aşağ nə də yuxarı olmalıdır. Biləklərinizə fikir verin, adətən klaviaturada işləyən insanlar biləklərində olan ağrıdan şikayət edirlər. Uzun müddət klaviaturada işlədiyiniz zaman biləklərə bir neçə saniyə istirahət verərək, bir neçə dairəvi hərəkətlər edin.

5. Çalışın monitorun mərkəzi ni baxışınızın səmtinə yerləşdirin. Bu göz və boyun üçün ən rahat pozadır. Çalışın monitoru yarım metrədən yaxın çəkməyin, bu gözləriniz üçün çox ziyanlıdır. Belə hallarda artıq göz şüalanmadan çox, gözün yaxın obyektlərə baxdıqda rahatlanmasından korlanır. Buna əsaən göz üçün gimnastika olaraq yaxın və uzaq predmetlərə baxmağı məsləhət görürlər. Bu hərəkətləri çalışıb saatda 1 dəfə edin.

6. Hər 2 saatdan bir özünüzə tam olaraq 5 dəqiqəlik istirahət verin. Ayağa durub, bir az gəzməniz, hərəkət etməniz, qamətinizin düzəldin və mümkün qədər pəncərədən uzun məsafəyə baxaraq təmiz hava udun.

## Virciniya alimləri: İnsanın yaddaşı 37 yaşında zəifləyir

Virciniya Universitenin (ABŞ) tədqiqatçıların rəyinə görə, insan beyinin qocalması biz fikirləşdiyimizdən daha tez başlayır. Alimlər bir qrup müxtəlif yaşda olan insanların iştirakı ilə uzun illər müddətində araşdırma aparıblar. Araşdırmalar nəticəsində məlum oldu ki, beyinin fəaliyyətinin zirvəsi 22 yaş həddidir. 27 yaşında insan beyinin fəaliyyətində artıq müəyyən problemlər meydana çıxır. 37 yaşında insanın yaddaşı zəifləməyə başlayır. 60 yaşından sonra isə beyində ciddi pozğunluqlar baş verir.

## Səudiyyə Ərəbistanında kinoteatrlar 35 ildən sonra yenidən açılacaq

Səudiyyə Ərəbistanında 35 ildən sonra ictimai kinoteatrlar yenidən açılacaq. AZƏRTAC "The National" nəşrinə istinadla xəbər verir ki, Krallığının mədəniyyət və informasiya naziri Avad bin Saleh Al-Avadın sözlərinə görə, artıq lisenziyaların verilməsi başlayıb. Açılış gələn ilin mart ayına planlaşdırılıb. Xatırladaq ki, Krallıqda filmlərin kütləvi nümayişi 1980-ci illərdə qadağan edilmişdi. Din xadimləri isə gəncləri ictimai və əyləncəli tədbirlərdən imtina etməyə çağırırdılar. Mədəniyyət Nazirliyində bildiriblər ki, kinoteatrların açılması "iqtisadi artım və diversifikasiyanın katalizatoru olacaq".


**ELAN**

Suraxanı rayonunun İcra Hakimiyyəti tərəfindən rayonun Hövsan qəsəbəsi, Çöllük küçəsində yerləşən 400 kv.m. torpaq sahəsinə aid Əhmədov Allahverən Əhməd oğlunun adına verilmiş JN-2058 H saylı şəhadətnamə itdiyi üçün etibarsız sayılır.


## Formula-1 yarışlarının Azərbaycan Qran-Prisi mərhələsinə gələn tamaşaçıların sayı 58 faiz artıb



Formula-1 yarışlarının rəhbərləri ötən mövsümdə Qran-Pri mərhələlərinə gələn tamaşaçıların sayı barədə məlumat dərc ediblər. Əvvəlki ilin müvafiq göstəriciləri ilə müqayisədə bu rəqəm 8 faiz artıb. Promouterlərin məlumatında göstərilir ki, 20 Qran-Pri mərhələsinin 13-də tamaşaçıların sayı 2016-cı ildəkindən çox olub. Mövsüm ərzində bu mərhələlərə tamaşa edənlərin ümumi sayı 4 milyonu keçib. AZƏRTAC F1News.ru saytına istinadla xəbər verir ki, Azərbaycan Qran-Prisinə tamaşa etməyə gələnlərin sayı 58 faiz artıb, ən populyar mərhələlər isə Kanada və Avstriya mərhələləri olub. Bu yarışlara gələn tamaşaçıların ümumi sayı bir il əvvəlki ilə müqayisədə 60.000 nəfər çox olub.

Beş Qran-Prinin promouterləri bu yürüşlərə marağın azalmasını qeyd ediblər. Ən çox itirən ABŞ-da keçirilən mərhələ olub: əvvəlki mövsümlə müqayisədə bu dəfə tamaşaçıların sayı 11.889 nəfər az olub. Faiz nisbəti ilə hesablandıqda Yaponiya Qran-Prisinin auditoriyasında daha ciddi azalma baş verib (5,84 faiz).

Monako və Abu-Dabidə yarışlara gələnlərin sayı demək olar ki, dəyişməz qalıb. Bu ölkələrdə yürüş keçirilən həftəsonu günlərdə avtodromların tribunalarında orta hesabla 203.570 tamaşaçı olub. Qran-Pri günündə 76.222 nəfər gəlib, bu isə 2016-2017-ci illərdə Çempionlar Liqasının, Premyer-Liqanın və Bundesliqanın, habelə 2016-cı ildə NFL-in və 2014-cü ildə Futbol üzrə Dünya Çempionatının analoji orta göstəricilərindən yüksəkdir. Formula-1 yarışlarının kommersiya direktoru Şon Bratçes deyib: "Bizim idmanın əsasını təşkil edən yürüşçülərin, komandaların və ən əvvəl, azarkeşlərin sayəsində 2017-ci il mövsümündə həm trasda, həm də trasdan kənarda baş verən hadisələr son dərəcədə baxımlı olub. Qran-Pri mərhələlərinə 200.000-dən çox tamaşaçı gəlib. Bu o deməkdir ki, il ərzində yürüşlər keçirilən 20 uik-end günlərində avtodromlarda toplaşanların ümumi sayı orta ölçülü bir şəhərin əhalisinin sayına bərabərdir. Bizim borcumuz çempionatın hər bir mərhələsini daha maraqlı etmək, dünyada ən yaxşı yürüş şousunun potensialını üzə çıxarmaqdır".

## "Real"ın müdafiəçisi vergidən yayındığını etiraf edib



Madridin "Real" klubunun məşhur braziliyalı müdafiəçisi Marselonun da adı vergidən yayınanların sırasında gündəmə gəlib. AZƏRTAC xəbər verir ki, o, məhkəmədə vergidən yayındığını etiraf edərək 500 min avro məbləğində kompensasiya ödəməyə hazır olduğunu deyib.

Mətbuatın yazdığına görə, futbolçunun məhkəməsi cəmi 10 dəqiqə çəkib. Onu cinayət sxemi yaratmaqda ittiham edirlər. Həmin sxem vasitəsilə Marselo iki il ərzində (2011-ci ildən 2013-cü ilədək) vergidən yayınmaq məqsədilə imic hüquqlarının satışından əldə etdiyi gəlirləri gizlədib.

## "Neftçi" "ASAN məktub" sosial layihəsinə qoşulur




Sosial layihələrə hər zaman xüsusi önəm verən "Neftçi" PFK daha bir layihəyə qoşulur. SİA-nın məlumata görə, xalqın komandası uşaqlara sevinc bəxş etmək və cəmiyyətdə qayğı hissini artırmaq məqsədi daşıyan sosial layihə - "ASAN məktub"la uşaqların arzularını həyata keçirəcək. Futbolçular yeni il ərəfəsində "ASAN məktub" portalına (asanmektub.az) müraciət edən 10 uşağı seçərək onlarla görüşəcək. "Bakcell Arena"da baş tutacaq görüşdə uşaqlar komandanın ev oyunlarını keçirdiyi stadionla tanış olub, "Neftçi" PFK-nın muzeyini ziyarət edəcəklər. Sonda əsas komandanın futbolçuları seçdikləri uşaqlara yeni il hədiyyələri təqdim edəcəklər.

## Mourinyo qapıçının başına plastik qab çırpdı



İngiltərə Premyer Liqasının XVI turunda baş tutan "Mançester Yunayted" - "Mançester Siti" oyunundan (1:2) sonra qalmaqal baş verib. SİA-nın məlumatına görə, meydan sahibləri "şəhərlilər"in qələbəni çılğınlıqla qeyd etməsini qəbul edə bilməyib. Qonaq komandanın paltardəyişmə otağına yaxınlaşan Joze Mourinyo onları sakitləşdirmək istəyib. Bundan sonra portuqaliyalı mütəxəssislə rəqibin qapıçısı Ederson arasında mübahisə baş verib. Əsəblərinə hakim ola bilməyən Mourinyo qolkiperin başına plastik qab çırpıb. Ardınca iki komandanın üzvləri arasında kütləvi dava baş verib. "Mançester Siti"nin məşqçisi Mikel Artetanın qaşı çatılıb. Oyun zamanı heç nə ilə yadda qalmayan Romelu Lukaku gücünü matçdan sonra sınayıb. Belçikalı forvard Artetaya zərbə endirib.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**